# Paralel

www.paralel.az

İctimai-siyasi qəzet

18 may 2023-ci il

№ 059 (3627)
Qiymәti 50 qәpik


Gün-Xəbər



## Prezident qəbul keçirdi ...

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 17-də Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri Mixail Myasnikoviçi qəbul edib.

Mixail Myasnikoviç Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə prezident İlham Əliyevə təbriklərini çatdırıb, Ulu Öndərin böyük tarixi şəxsiyyət kimi Azərbaycanın inkişafında müstəsna rolunu qeyd edib.

Görüşdə Azərbaycanın Avrasiya İqtisadi İttifaqına daxil olan üzv dövlətlərlə ticarət dövriyyəsinin və ticarət imkanlarının genişləndirilməsi barədə müzakirələr aparılıb.

Mixail Myasnikoviç prezident İlham Əliyevə əməkdaşlıq istiqamətləri barədə təkliflər verib.



## ... Və sərgidə iştirak etdi

Mayın 17-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva «Bakı Ekspo Mərkəzi»ndə XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - *"Caspian Agro"* və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi - *"İnterFood Azerbaijan"* sərgiləri ilə tanış olublar.

Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

# "Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq"



Bunu Ermənistanın baş naziri Nikol Paşinyan Avropa Şurasının İslandiyanın paytaxtı Reykyavik şəhərində keçirilən sammitində deyib. O, qeyd edib ki, bundan əvvəl Ermənistan və Azərbaycan Fransa prezidenti Emmanuel Makronun və Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə «Alma-Ata Bəyannaməsi» əsasında münasibətləri normallaşdırmaq barədə razılığa gəliblər. *"Üç gün əvvəl Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə biz irəliyə doğru addım atdıq və vurğuladıq ki, Ermənistan Azərbaycanın 86,6 min kvadrat kilometr, Azərbaycan isə Ermənistanın 29,8 min kvadrat kilometr ərazisini tanıyır"*, - Paşinyan bildirib.

## Brüssel görüşünü Moskva iqnor edəcək



Rusiya güclü olduqca, regiondakı münaqişələr bitməyəcək

Səh.3

## Səndən öncəkindən irəli düşmək cəhdi



Və buna nail olmaq

Səh. 5

## Mədəniyyətin hədəfi nə olmalıdır?



Şairin padşahı vəsf elədiyi ölkədə ...

Səh. 6



## «Politik» nəşri: "İrəvanda ailə hakimiyyəti qurulur"

**Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan növbəti dəfə yerli medianın hədəfinə tuş gəlib. "Politik.am" nəşri Akopyanla bağlı sensasiyalı yazı dərc edib.**

Məqalə müəllifi iddia edir ki, Ermənistanın növbəti rəhbəri Paşinyanın arvadı ola bilər. Bunun üçün tutarlı şübhələr də yaranıb.

Qeyd edilir ki, Akopyanın son zamanlardakı fəaliyyətinə görə onun ciddi siyasi ambisiyalarının olduğunu ehtimal etmək olar. Heç bir dövlət vəzifəsi olmayan şəxs dövlət başçıları, müdafiə nazirləri, beynəlxalq strukturların rəhbərləri ilə görüşür, hətta tez-tez təxribat xarakterli siyasi bəyanatlar verir, ordu və müharibə problemlərini təhlil edir. Bir sözlə, o özünü uzaqgörən, siyasi konsepsiyaları olan siyasətçi kimi aparır.

*"Paşinyanın həyat yoldaşının belə aktiv fəaliyyəti şayiələr səviyyəsində olsa belə hakim partiya daxilində də müzakirələr üçün fürsətə çevrilir. Hətta partiyanın fəal qadın üzvləri məlum proseslərə qısqanclıqla yanaşırlar. Onlar Anna Akopyanı yaxşı tanıdıqları üçün öz aralarında olan müzakirələrdə əminliklə deyirlər ki, bütün bu gedişlər boşuna deyil"*, - məqalədə yazılıb.

Müəllif hətta siyasi elitada müzakirələrə səbəb olan qalmaqallı varislik iddiaları ilə bağlı hakim partiyanın xanım fəallarından birinin də fiirlərini öyrənib.

*"Anna Akopyan çox iddialıdır və eyni zamanda onun maraqlarına uyğun olmayan bütün məsələlərə biganə yanaşır. Deyəsən, o, hansısa fors-major vəziyyətdə ərinin yerini tutacaq"*, - adının açıqlanmasını istəməyən partiyanın fəal qadınlarından biri deyib.

"Politik.am"ın iddiaları və şübhələrinin əsaslı olmasını Paşinyanın inqilabla hakimiyyət kürsüsünə yiyələnməsindən sonra avtoritarizmə meyllənməsi də sübut edir. Hətta beynəlxalq təşkilatlar belə indiki baş nazirin Qarabağ klanını devirən zaman söz verdiyi demokratik dəyərləri tətbiq etməməsini dəfələrlə öz hesabatlarına salıblar.

# A.Budberq: "Ermənistan cəmiyyəti müharibənin nəticələri ilə barışıb"

**Ermənistanla Azərbaycan arasında münasibətlərin nizamlanması üzrə danışıqlar prosesinin aktiv mərhələsi davam edir.**

Bir müddət əvvəl ABŞ-də Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında görüş keçirilib.

Ardınca Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşkilatçılığı ilə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında danışıqlar aparılıb.



Baş tutan müzakirələr barədə Oxu.Az-a müsahibə verən rusiyalı jurnalist və siyasi müşahidəçi Aleksandr Budberq hesab edir ki, danışıqların səmərə vermədiyini söyləmək düzgün olmaz:

- Bəli, bir tərəfdən, hələ nəticələri gözləməyə dəyməz. Ancaq digər tərəfdən, bu, nəticəyə doğru bir addımdır. Hesab edirəm ki, əsas dəyişiklik baş verib və bu ondan ibarətdir ki, əgər əvvəllər Azərbaycanla sülh sazişi ideyası Ermənistan üçün ümumiyyətlə qəbuledilməz idisə, indi bu, qeyri-populyar olsa da, mümkündür. Və proses daha da irəli gedəcək.

*- Ermənistan müxalifəti Nikol Paşinyana ciddi təzyiqlər edir. Müxalif "Ermənistan" parlament fraksiyasının üzvü, "Daşnaksütyun" partiyasının lideri İşxan Saqatelyan əhalini ümumvətəndaş itaətsizliyinə səsləyib.*

- Bəli, Ermənistanın baş naziri ciddi təzyiq altındadır, o, bunu nəzərə almalıdır. Amma eyni zamanda, təcrübə göstərdi ki, Ermənistanda ultravətənpərvər ideyalara istinad edərək Paşinyanı uzaqlaşdıra biləcək qüvvə yoxdur. Ümumiyyətlə, Ermənistan cəmiyyəti artıq müharibənin nəticələri ilə barışıb, həm də daim müharibəyə çağırış edən liderlərdən yorulub.

*- Dediniz ki, Ermənistanda Paşinyanı kənarlaşdıra biləcək qüvvə yoxdur. Bəs onun fiziki olaraq aradan götürülməsi haqqında nə demək olar? Tanınmış erməni hüquqşünas Muşeq Şuşanyan bu yaxınlarda bəyan etmişdi ki, "Nikolun (Paşinyan – red.) fiziki cəhətdən aradan götürülməsi tamamilə doğru hərəkət olardı".*

- Ermənilər temperamentli xalqdır... Bu vəkil isə çox şey deyə bilər. Amma fakt faktlığında qalır: Ermənistanın müharibəni uduzmasına, digər böyük problemlərinin olmasına baxmayaraq, Paşinyan baş nazirdir. Hətta müharibədən dərhal sonra etirazçılar hökumət binalarını qarət edəndə onun sənədləri oğurlanmışdı. Amma o, ölkənin başçısı olaraq qaldı, bu o deməkdir ki, digər qüvvələr onu postundan kənarlaşdıra bilməzlər.

*- Mən Ermənistandakı ictimaiyyət nümayəndələrindən sitat gətirməyə davam edəcəyəm. "Ermənistan" parlament fraksiyasının rəhbəri, keçmiş müdafiə naziri Seyran Ohanyan deyib ki, ermənilərin məqsədi "Ermənistanın ərazi bütövlüyünü bərpa etmək, azərbaycanlıları ərazilərimizdən qovmaq, "Artsax"ı azad etmək və öz müqəddəratını təyinetmə ideyalarını reallaşdırmaq olmalıdır".*

- O, ciddi adam deyil. Ohanyan, sadəcə olaraq, parlamentdəki müxalifət fraksiyasının rəhbəridir ki, reytinqini artırmaq üçün nə desən, edə bilər. Əgər o, indiki müdafiə naziri olsaydı və bu statusda qeyd etdiyiniz açıqlamalar versəydi, bu, başqa məsələ olardı. İndi o, Ermənistanın hərbi məğlubiyyətinin ağır durumundan xal qazanmağa çalışan cılız siyasətçidir.

*- Axı, o, keçmiş müdafiə naziri kimi başa düşməlidir ki, Ermənistanın hərbi revanş almaq üçün nə gücü, nə də imkanları var.*

- Bu onu narahat etmir. O, sadəcə, zəvzəyir, belə olan halda isə artıq düşünməyə ehtiyac qalmır.

# "Elə finalçılarımız var ki, Prezident Administrasiyasında işləyir"



*"Yüksəliş" müsabiqəsi vəzifə almaq yox, özünü təqdim etmə müsabiqəsidir. Elə bacarıqlı adamlar var ki, onlar işlədikləri qurumlarda orta və aşağı vəzifələrdəndir və özlərini təqdim edə bilmirlər. "Yüksəliş" platforması onların özlərini göstərmə fürsətdir".*

Bunu gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin İşçi qrupunun rəhbəri Fərhad Hacıyev deyib. O bildirin ki, birinci müsabiqədə orta zəncirin nümayəndələri biliklərini nümayiş etdirib, potensiallı olduqlarını göstəriblər və həyatlarında dəyişiklik olub: *"Onlara idarələrindən və digər dövlət qurumlardan təkliflər gəldi. Təkliflər təkcə finalçılara yox, yarımfinalçılara da oldu. Elə finalçılarımız da var ki onlara yüksək vəzifələr təqdim olunur, amma onlar iş yerlərini dəyişmirlər".*

F.Hacıyev bildirib ki, iş təklifləri alanlardan hazırda Prezident Administrasiyasında bölmə rəhbəri, dövlət idarələri, böyük holdinqlərdə işləyənlər də var.

*"İştirakçılar arasında final mərhələsinə gəlib çatanlar arasında işsiz olmayıb. Finalçılardan artıq 2 nəfəri dövlət proqramı çərçivəsində xaricdə magistr təhsili almaq üçün müraciət edib".*



## Lavrov: "Qərb Rusiyanın müttəfiqlərini çətin vəziyyətə salır"

**Qərb ölkələri Rusiyanın ən yaxın müttəfiqlərini, xüsusən də keçmiş Sovet İttifaqı ölkələrini Moskva ilə əlaqələrinə görə çətin vəziyyətə salmağa çalışır.**

Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Tsarqrad telekanalına müsahibəsində deyib.

*"Ən yaxın müttəfiqlərimizin, strateji tərəfdaşlarımızın hərəkətlərinə, bəyanatlarına əsaslanan çoxlu faktlar var ki, onlar yumşaq desək, çox çətin vəziyyətə salınıblar"*, - Lavrov əlavə edib ki, müttəfiqlər iqtisadi zərərin qarşısını almağa çalışırlar.

Nazirin sözlərinə görə, Qərb bu ölkələrdən öz maraqlarına zidd, qızıl dağlar vəd edən addımlar atmamağı tələb edir, amma reallıqda bu, daxili işlərə qarışmağa gətirib çıxarır.

Lavrov əlavə edib ki, bu vəziyyətə görə müttəfiqlər Rusiya, eləcə də Avrasiya İqtisadi Birliyi, MDB ölkələri ilə iqtisadi əməkdaşlığı davam etdirdikləri üçün "iki atəş arasında qalırlar, lakin eyni zamanda Mərkəzi Asiya və Zaqafqaziya iqtisadiyyatında Qərbin payı artır.



## Dünya Bankı: "Azərbaycanda yoxsul əhalinin 60 %-i kənd yerlərində yaşayır"

**Azərbaycanda yoxsul əhalinin 60 %-i kənd yerlərində yaşayır.**

Bunu Bakıda keçirilən "GSMA Mobile 360 Eurasia 2023" konfransında Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Sara Maykl (Sarah Michael) bildirib.

Onun sözlərinə görə, Azərbaycanda "Ağıllı kənd" layihələrinin icrası ölkədə yoxsulluq səviyyəsinin azalmasına səbəb olacaq: *"Dünya Bankı Azərbaycanın həyata keçirdiyi bu layihələri dəstəkləyir. Belə layihələr Asiyada geniş yayılıb. Məhz kənd yerlərində texnologiyalardan istifadə yoxsulluğu təxminən 50 % azaldır. Kənd yerlərində yaşayan yoxsul əhali daha çox təbii fəlakətlər və böhranlardan əziyyət çəkir. Bunu azaltmaq üçün həm hökumət, həm də özəl sektorla çalışırıq. Biz hesab edirik ki, Bakıdan nə qədər uzaqda yerləşməsindən asılı olmayaraq hər bir icma rəqəmsal texnologiyalardan istifadə etməlidir. Azərbaycanda potensial insan kapitalı yüksək səviyyədədir. Onların inkişafına kömək etməyə hazırıq"*, - deyə o qeyd edib.

# Brüssel görüşünü Moskva iqnor edəcək

## Rusiya güclü olduqca, regiondakı münaqişələr bitməyəcək

**Son 2 ildə Azərbaycan - Ermənistan münaqişəsi Vaşinqton - Brüssel - Moskva arasında ciddi dartışma predmetinə çevrilib. Rusiyanın gücünü Ukrayna ilə müharibəyə sərf etdiyi gərgin vaxtda ABŞ və Avropa İttifaqının Azərbaycanla Ermənistan arasında sülh sazişi barədə danışıqlara zaman ayırmasını həm də Rusiyanın Ukraynaya yönəltdiyi gücü parçalamaq məqsədi güddüyü qənaətindəyəm.**

Azərbaycan və Ermənistan XİN rəhbərlərinin mayın 1-4-də Vaşinqtonda keçən görüşdən sonra, mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə İlham Əliyev və Nikol Paşinyan arasında keçən görüş hər iki ölkə ictimaiyyətinin diqqətini özünə cəlb etdi. Görüşün nəticəsi Azərbaycanın təklif etdiyi sülh sazişi paketinin faktiki olaraq qəbul olunduğu qənaətini yaratdı.

Qeyd edək ki, üçtərəfli Brüssel görüşünün prezident İlham Əliyevin irəli sürdüyü sülh sazişi şərtlərinin qəbul olunması ilə bitməsi ölkəmizin növbəti uğuru sayılır. Bu, yekunda əldə olunmuş nəticəyə müsbət təsir göstərdi və belə demək mümkünsə, Azərbaycan bu görüşdə əsasən, istəyinə nail oldu. Görüşdə altını cızmaq lazım olan ən ciddi məqamlardan biri ondan ibarət oldu ki, Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmən elan etdi. Eyni zamanda, Ermənistanın baş nazirinin Qarabağı Azərbaycanın ərazisi kimi tanıdığını Avropa İttifaqının tribunasından bəyan etməsi müsbət hal kimi qiymətləndirilir. Adətən, sülh danışıqlarında daim ikibaşlı mövqe nümayiş etdirən Nikol Paşinyanın bu dəfə Azərbaycanın ərazi bütövlüyünü "Qarabağsız" tanımaq kimi, provokativ mövqedən imtina etməsi də müsbət hadisədir.

Danışıqların gedişində o da aydın oldü ki, Laçın-Xankəndi yolunda Sərhəd-keçid məntəqəsi qurulmasından, Qarabağa gedib, gələn ermənilərin sənədinin və nəqliyyatın yoxlanılmasından sonra Ermənistan Azərbaycanın torpaq bütövlüyünə qarşı iddiadan əl çəkilməyin zamanı olduğunu nəhayət, dərk edir.

Brüssel görüşündə "Ermənistan Azərbaycanın ərazi bütövlüyünün qəbul edir"-Paşinyanın ifadə etdiyi fikir Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağla bağlı iddiadan imtina etməsi barədə təsəvvür gerçəkləşir. Çünki Paşinyan yaxşı bilir ki, Brüssel görüşünün nəticəsilə faktiki olaraq, Azərbaycan - Ermənistan münaqişəsini nəzarətində saxlayan Moskva razılaşmayacaq. Sadəcə olaraq, Brüsseldə Paşinyan özünü sülh tərəfdarı göstərməklə, münaqişənin həll olunmasına və Azərbaycanla - Ermənistan arasında sülh sazişi bağlanmasına tərəfdar olduğunu nümayiş etdirir.

Bu gerçəkliyi qəbul etməklə, Ermənistan Qarabağda yaşayan ermənilərin Azərbaycan vətəndaşı olduğunu, Azərbaycan Konstitusiyasını qəbul etməli olduqlarını təsdiq edir. Qarabağ ermənilərinin vətəndaş hüquqları, təhlükəsizliyi və digər təminatlarının Bakıya aid olduğunu təsdiq etməklə, Ermənistanın artıq bundan sonra Qarabağda yaşayan ermənilərlə bağlı Bakının işinə qarışmayacağını təsdiqləyib.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel də Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmən bəyan etməklə, delimitasiya ilə bağlı Ermənistanı bu prosesdən çəkindirən qüvvələrə mənasız fəaliyyətlərini dayandırmaq barədə mesaj verib.

Brüsseldə Ş. Mişelin "Alma-Ata Bəyannaməsi"nə uyğun olaraq, Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyasının yekunlaşdırılması barədə fikiri Azərbaycanın 2 ildir ki, qətiyyətlə masa üzərinə qoyduğu iki ölkə arasında sülh sazişi bağlanması ideyasının etirafıdır.

Üçtərəfli Brüssel görüşündə Azərbaycanın irəli sürdüyü nəqliyyat-kommunikasiya qurğularının yaradılması, xüsusən Zəngəzur dəhlizinin açılması da nəzərdən keçirilib və məsələnin həll olunması istiqamətində razılıq əldə olunub. Ş. Mişelin "nəqliyyat dəhlizləri məsələsində tərəflər irəliləyişə nail olublar" bəyanatı məhz Naxçıvana və əks istiqamətdə dəmir yolu əlaqəsinin yaradılmasına dair ümumi razılaşmanın əldə edilməsinə işarədir.

Beləliklə, qeyd edək ki, Brüsseldə başa çatan növbəti üçtərəfli görüşün nəticəsi Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması üçün zəmin yaradır. Görüşün yekun sənədinin məzmunu Azərbaycanın irəli sürdüyü sülh sazişi layihəsi planına tam uyğun olması da yaxşı nəticədir.



Məlumdur ki, Brüssel görüşündən sonra Azərbaycan və Ermənistan rəhbərləri Moskvaya dəvət olunub. Əslində, hər kəs bilir ki, Moskvada keçiriləcək üçtərəfli görüş Brüsseldə keçirilən üçtərəfli görüşün tam əksini diqtə edəcək. Yəni Moskva Azərbaycan - Ermənistan münaqişəsini öz nəzarətində saxlamaqla, Cənubi Qafqazda daim mövcud olmaq üçün sülh sazişinin imzalanmasına və münaqişənin bitməsinə imkan verməyəcək.

Əslində, Azərbaycan və Ermənistan rəhbərləri bilir ki, Moskva görüşündə danışıq prosesi Brüssel görüşünün ruhuna uyğun keçməyəcək və Moskva danışıqlarda əldə olunmuş razılaşmanın həyata keçməsini hərbi təxribatlarla əngəlləyəcək. Ermənistanda geniş imkana malik olan Rusiya qüvvələri Moskvanın razılığı olmadan heç vaxt Azərbaycan və Ermənistan arasında sülh sazişi imzalanmasına yol verməz.

Vaşinqton da, Brüssel də anlayır ki, Ermənistanda cərəyan edən hərbi-siyasi proseslər Paşinyanın nəzarətində deyil. Ona görə də, Rusiyanın regionda mövcudluğu Azərbaycan və Ermənistan arasında hərbi təxribatların baş verməsini qaçılmaz edir.

Regionda hərbi qüvvələr balansına yaxından bələd olan hər bir kəs bilir ki, Rusiyanın Cənubi Qafqazda mövcudluğunun əsasını Azərbaycanla Ermənistan arasında münaqişə təşkil edir. Əgər iki ölkə arasında sülh sazişi imzalanarsa, hərbi münaqişə bitər və Rusiyanın regionda qalmasına ehtiyac qalmaz. Buna görə, Rusiyanın böyük gücə malik olduğu hazırkı dövrdə Azərbaycan və Ermənistan arasında münaqişəyə son qoyulmasının mümkünlüyünü təsəvvürə gətirmək çətindir.

Postsovet məkanında hərbi gücü hesabına hegemonluq edən Rusiyanın Ukraynaya hərbi təcavüzü nəticəsində Avrasiyanın, o cümlədən Cənubi Qafqazın arxitekturasında ciddi dəyişiklik baş verməsinə böyük inam yaranıb. Bu dəyişiklik regionda baş vermədən, Azərbaycanla Ermənistan arasında hərbi münaqişənin bitəcəyinə ümid etmək mümkün deyil.



*Tapdıq ABBAS*

*Təsisçi,*

*"Əməkdar mədəniyyət işçisi",*

*Pedaqoji fəlsəfə doktoru,*

*Qarabağ müharibə veteranı*

*t.abbas1952@list.ru*

## Beqlaryan: "Anlaşma əldə edilib, bu əraziləri də təhvil verəcəyik"



***"Brüsseldəki son anlaşma ilə anklavlar da (Qazaxın 7, Naxçıvanın 1 kəndi) Azərbaycana təhvil veriləcək".***

Bunu erməni kartoqraf Qriqor Beqlaryan deyib.

Ekspert Ermənistan Baş naziri Nikol Paşinyanın 86.6 min kvadrat kilometrlik ərazisində Azərbaycanın bütövlüyünü tanıdığını bildirib.

Onun sözlərinə görə, bu müqavilə ilə Qarabağın dağlıq hissəsi ilə yanaşı, anklavlar da təhvil veriləcək, çünki Azərbaycanın 86.6 min kvadrat kilometr ərazisi də bura daxildir.

***"Bəli, bu ərazilərin – anklavların hamısı təhvil veriləcək"***, - Beqlaryan əlavə edib.

Kartoqraf Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü hələ 1991-ci ildə tanıdığını söyləyib: ***"1991-ci ildə SSRİ dağılanda və 15 respublika öz müstəqilliyini elan edəndə bütün beynəlxalq hüquq həmin dövlətləri keçmiş sovet inzibati sərhədləri ilə tanıdı. Məsələ budur ki, ondan əvvəl baş verənlər (Qarabağda separatizmin baş qaldırmasını – red.) rəsmi beynəlxalq hüquq tərəfindən tanınmır. Beləliklə, 1991-ci ildə həmin 15 respublikanın sovet inzibati sərhədləri daxilində olduğu açıqlandı".***

Digər kartoqraf Ruben Qalçyan da anklavların Azərbaycan ərazisi olduğunu deyib.

Qalçyan 1991-ci ilin xəritəsinə istinad edərək qeyd edib: ***"Sovet dövrünün xəritəsidir. Sovet dövründə Ermənistan və Azərbaycanın xəritəsi necə olub? Eynidir, yəni Qarabağ bütünlüklə Azərbaycan ərazisində idi".***

## KAMAL KILIÇDAROĞLU SEÇKİLƏRİN BİRİNCİ TURUNDA NİYƏ MƏĞLUB OLDU?

- Kamal bəy səmimi insandır, yaxşı məmurdur, ancaq siyasi lider deyil, türklər liderə çox önəm verirlər, Ərdoğanın qarşısına liderlik özəlliyi olan namizəd çıxsa idi, fərqli nəticə ola bilərdi. Kamal bəy Maral xanımın seçimə qazanacaq namizədlə getməliyik israrını qəbul etmədi, Türkiyədə iqtisadi şərtlər çox ağırdır, kim namizəd olsa, qazanar məntiqi ilə hərəkət etdi, tarixi şansım var dedi;

- Kamal bəy seçki kompaniyasında Əkrəm İmamoğlunu, Mansur Yavaşı önə çıxardı, onların kölgəsində gizləndi, zəif liderliyini ört-basdır etməyə çalışdı, bir lider mücadiləsinin başında özü durmalıdır;

- Kamal bəyin bağlı olduğu masa dedi ki, dövləti 8 lider birlikdə idarə edəcək, bu, seçicini avtoritar Ərdoğanla xaos arasında seçimə məcbur etdi, o, dövlətin bir başı olar məntiqi ilə davrandı, xaosdan qorxaraq Ərdoğana üstünlük verdi – Ərdoğan da davamlı olaraq onlar gəlsə, qarışıqlıq olacaq tezisini vurğuladı, seçicini avtoritar Ərdoğanın xaosdan daha yaxşı olduğuna inandırdı;

- Kamal bəyin HDP ilə bağı Ərdoğana böyük imkan açdı, o, terroru, Türkiyənin təhlükəsizliyini önə çıxardı – HDP öz namizədi ilə getsə idi, Ərdoğanın onları bir-birinə bağlaması çətin olardı, Kamal bəy ümumi biçimdə terroru lənətləsə də, PKK terror təşkilatıdır deyə bilmədi, nəticədə, milli duyğuları güclü olan seçicilər Ərdoğana yönəldi. Ərdoğan da bu məsələni önə çıxararaq ciddi iqtisadi sıxıntıları bir müddət olsa da, unutdurdu, arxa plana keçirdi, xalq Kamal bəyin vədlərinə deyil, əlində olanı qorumağa üstünlük verdi;

- Kamal bəy Ərdoğanın xarici siyasət xəttinə qarşı çıxdı, Türkiyədə ümumi qənaət budur ki, Ərdoğanın xarici siyasəti doğrudur;

- Kamal bəyin, tərəfdarlarının Türkiyənin hərbi sənayesi ilə bağlı yanlış sözləri seçiciləri ciddi narahat etdi, türklər Bayraqdarın uğurlarına çox dəyər verirlər;

- Nəticədə, lider zəifliyi, xaos qorxusu, terror təhlükəsi iqtisadiyyat, ədalət, azadlıqla bağlı ciddi sıxıntıları olan Türkiyədə Ərdoğanın önə çıxmasının yolunu açdı;



**Siracəddin Hacı**

# "Hakimiyyət dəyişsə, Türkiyə 90-cı illərə qayıdacaq"

## Ukraynalı ekspertlə müsahibə

*“Ərdoğan və onun partiyası Türkiyədə görünməmiş islahatlar apardı. Bu islahatlar onu regionun lider ölkəsinə çevirdi. Heç bir başqa hökumət analoji nəticələr əldə etməyib. Adnan Menderes və Turqut Özal hökumətləri irəliləyiş əldə etsələr də, Ərdoğanın rəhbərlik etdiyi hökumətlərin nailiyyətləri daha əhəmiyyətlidir”.*

Bu sözləri müsahibəsində ukraynalı şərqşünas, türkoloq Qriqori Mavrov deyib. O bildirib ki, Ərdoğanın dövründə Türkiyədə həyat səviyyəsi ciddi şəkildə yüksəlib, iqtisadiyyat daha müasir və texnoloji xarakter alıb.

- Lakin onu da nəzərə almaq lazımdır ki, biz siyasi liderlərin dəyişməsinin norma olduğu bir reallıqda yaşayırıq. Çünki insanlar siyasətçilərdən yorulur. Bundan başqa, Ərdoğanın maliyyə siyasəti və Türkiyənin maliyyə qurumları ilə münasibətləri həmişə uğurlu olmayıb və bu, milli valyutanın devalvasiyasına gətirib çıxarıb, Türkiyə iqtisadiyyatında bir sıra başqa problemlər yaradıb. Fəlakətli zəlzələ də hökumətin reytinqinə mənfi təsir göstərdi, onun fəaliyyətinə əhali arasında şübhələr yaratdı.

***- Ərdoğan-Kılıçdaroğlu qarşıdurmasını necə qiymətləndirmək olar?***

- Bu, köhnə rəqiblərin kifayət qədər maraqlı toqquşmasıdır. Kamal Kılıçdaroğlu 2010-cu ildən Cümhuriyyət Xalq Partiyasına (CHP) rəhbərlik edir. Konstitusiya dəyişikliklərindən sonra prezident üsul-idarəsinə çevrilən ölkədə parlament modelinə sadiqliyi onun gücünü artırır. Bununla belə, Kılıçdaroğluna mane ola biləcək bir neçə amil var. Birincisi, o, ələvi azlığın nümayəndəsidir və əhalinin mühafizəkar hissəsi tərəfindən sevilmir. İkincisi, Kılıçdaroğlunun dövründə Cümhuriyyət Xalq Partiyası heç bir seçkidə qalib gəlməyib. Kılıçdaroğlunun özü isə təkcə dövləti deyil, hətta böyük bir şəhəri idarə etmək təcrübəsi olmayan müxalifət lideri kimi tanınır. Onun platforması əhalinin müxtəlif qruplarını razı salmaq məqsədi daşıyan vədlərlə doludur, lakin ölkədə iqtisadi vəziyyəti yaxşılaşdıra biləcək tutarlı siyasi proqram təklif etmir.



***- Hakimiyyət dəyişikliyi Türkiyənin xarici siyasətində necə əks oluna bilər? Yeni hökumət ölkəni həm regional, həm də qlobal liderliyə aparan Ərdoğanın yolunu yarıda kəsə bilərmi?***

- Hakimiyyət dəyişikliyi ölkəni çox güman ki, 90-cı illərin Türkiyəsinə qaytara bilər. O vaxt ölkədə hökumətlər mütəmadi dəyişilirdi. Kılıçdaroğlunun həddindən artıq populist proqramını, Meral Akşenerdən tutmuş Əhməd Davudoğluna kimi tamamilə fərqli siyasi qüvvələrin onun ətrafında birləşməsini nəzərə alsaq, bu ittifaqın yalnız Ərdoğanı məğlub etmək məqsədi daşıdığı, ondan sonra isə müttəfiqlərin barışmaz rəqiblərə çevriləcəyi açıq-aydın görünür. Kılıçdaroğlunun müxalifətdən dəstəyinin nə dərəcədə situativ olduğunu anlamaq üçün Akşenerin bu ittifaqa qoşulması ilə bağlı intriqanı yada salmaq olar.

Təbii, 1990-cı illərə şərti qayıdış o halda mümkündür ki, konstitusiya islahatları aparılsın və parlament modeli qaytarılsın. Kılıçdaroğlu mövcud modeli qoruyub saxlamaqla Türkiyənin avtokratik hökmdarına çevrilə və bunu müxalifətlə məsləhətləşmədən edə bilər. Bunun baş verəcəyini düşünmürəm, amma hadisələrin belə inkişafında inanılmaz heç nə yoxdur.

Xarici siyasətə gəlincə, görünür, yeni hökumət Suriya ilə bağlı siyasətinə yenidən baxacaq və çox güman ki, Bəşər Əsəd rejimi ilə münasibətlər bərpa olunacaq. Bəlkə də, Rusiya ilə bağlı siyasətə də yenidən baxılacaq, çünki Kılıçdaroğlu bir neçə dəfə Ərdoğanın Türkiyəni Rusiyadan asılı vəziyyətə saldığını bəyan edib. O eyni zamanda Qərbi də tənqid edir, odur ki, Türkiyənin yeni soyuq müharibə şəraitində xarici siyasətini konkret olaraq necə quracağı çox da bəlli deyil.

***- Ərdoğanın dövründə Ankaranın Yaxın Şərq və Afrika strategiyaları ilə yanaşı, Qafqaz siyasəti də kəskin şəkildə dəyişdi. Hakimiyyət dəyişikliyi bu siyasətə düzəlişlər edə bilərmi?***

- Türkiyənin Qafqaz siyasətində çətin ki, ciddi dəyişikliklər baş versin. Azərbaycana dəstək və Gürcüstanla strateji tərəfdaşlıq kursu Türkiyənin özü üçün faydalıdır və türk xalqı tərəfindən dəstəklənir. Türkiyənin Azərbaycan və Gürcüstanla strateji müttəfiqliyi bir sıra tarixi, mədəni, iqtisadi və siyasi amillərin birləşməsindən irəli gəlir və mövcud reallıqlarda alternativi yoxdur. Türkiyə bu iki ölkəni regionda mühüm tərəfdaşlar sayır. Bu birlik ortaq maraq və məqsədlərə xidmət edir, ona görə də, bu münasibətlərin məhv edilməsi və ya yenidən formatlaşdırılması Kamal Kılıçdaroğlu və komandasının planlarında ola bilməz.

***Qafqaz Ömərov***

# Yanıldıcı başlıqlara görə saytlara xəbərdarlıq

**Azərbaycan Mətbuat Şurasının Etika Komissiyası dünən bəzi xəbər saytlarında ”Cavanşir Məmmədov toyda çıxış edərkən qəfil öldü” başlığı ilə yayımlanan məlumata münasibət bildirib.**

*"Oxucular isə ilk baxışdan söhbətin müğənni Cavanşir Məmmədovdan getdiyini düşünüb. Təbii ki, bu da haqlı olaraq müğənni və onun yaxınları tərəfindən narahatlıq və narazılıqla qarşılanıb.*

*Əslində isə xəbərdə söhbət Biləsuvar rayon Nərimankənd kənd sakini, 1962-ci il təvəllüdlü Cavanşir Məmmədov adlı şəxsdən gedir. Mərhuma Allahdan rəhmət diləyirik.*

*Bunu deməyi vacib hesab edirik ki, belə yanıldıcı və manipulyativ başlıqlarla oxucunu aldatmaq cəhdləri uğursuz manevrdir. Çünki xəbərin sərlövhəsinə aldanan oxucu da həmin başlığı yayan sayta və ümumilikdə mətbuata inamsızlıq yaranır. Təəssüf ki, bu cür hallar peşəkar jurnalistikaya ciddi zərbə vurur.*

*Yaxşı olar ki, bu cür yanıldıcı başlıqlarla xəbər yayan mətbuat*




*orqanları İP qazanmaq üçün belə ucuz, qeyri-peşəkar yollara əl atmasın və oxucuları daha ciddi xəbərlər, gərəkli araşdırmalar, reportajlarla cəlb etməyə çalışsın".*

18 may 2023-ci il
www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru





## “Günay Bank”da olan əmanətlərin taleyi necə olacaq?

### 70 milyon manat...

**“Günay Bank” ASC müflisləşən zaman depozitlərinin həcmi 108 milyon 566 min manat olub. Bu portfelin 38.5 milyon manatı sığortalanmış əmanətlərdir. Mövcud qaydalara əsasən, sığortalanmış əmanətlər tam kompensasiya olunaraq depozit sahiblərinə geri qaytarılacaq.**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyib.

Deputat Mərkəzi Banka istinadən bildirib ki, bankın əmanətçilərinin say etibarı ilə 99,9%-nin əmanətləri kompensasiya olunacaq: “Bununla belə, bankdakı 70 milyon manata yaxın əmanət sığortalanmayıb. Əmanətçilər ilə depozit portfelinin həcminin müqayisəsi göstərir ki, sığortalanmamış əmanət az sayda vətəndaşlara məxsusdur. Yəni, bir sıra şəxslərin bu bankda milyonlarla ifadə olunan əmanətləri olub”.

Vüqar Bayramov sözlərinə görə, hazırda fiziki şəxslərin bankda olan 100 min manatadək əmanətləri sığortalanır: “Bu zaman milli valyutada olan əmanətlər üzrə qorunan divident faiz dərəcəsi 12, xarici valyutada isə 2.5 faizdir.




Əmanətlərin Sığortalanması Fondu qorunan əmanətləri geri qaytarır, qorunmayan depozitlər isə praktik olaraq bankın məsuliyyətindədir. Müflis olan bankda qorunmayan əmanətlər aktivlər passivlərin üstələdiyi halda qaytarıla bilər. Bununla belə, qorunmayan əmanətlərin taleyi ilə bağlı Fond tərəfindən real addımların atılmasına ehtiyac var. Zəif bankların müflisləşməsi deyil, sağlamlaşdırılması daha prioritet olmalıdır”.

Qeyd edək ki, mayın 16-da Mərkəzi Bank “Günay Bank” ASC-nin lisenziyasının ləğv olunması barədə qərar verib. Bankın bağlanması onun məcmu kapitalının həcminin azlığı ilə əlaqələndirilir.

# Səndən öncəkindən irəli düşmək cəhdi

## Və buna nail olmaq



**Dünən klinikaların birinə USM -ə (Ultrasəs müayinə, sonoqrafiya) getmişdim. Əlavə vaxt itkisi olmasın deyə, bir gün əvvəldən zəng edib növbə də götürmüşdüm.**

Getdim, vaxtım çatdı, müayinə otağına keçmək istəyirdim ki, bir millət vəkili gəldi (adını ona görə yazmıram ki, o, tek deyil, çiyindaşların 90%-i bu gündədir-Ş.S), heç qapını da döymədən keçdi məndən irəli. Yəni növbəmə girdi. Ardınca qapını döydüm ki, xanıma deyəm bəs mənim növbəmdi, kəlməm eləcə yarımçıq qaldı, köməkçi qız bildirdi ki, hələ 20-25 dəqiqə əlavə yenidən gözləməliyəm.

Yeni bir şey demirəm, hamının həyatında cəmi bir dəfə də olsa mütləq ki, qarşılaşdığı bir haldan danışıram. Bilirəm ki, bu misraları oxuyanlarınızın 80% -i belə hallarla demək olar ki, hər gün qarşılaşır, bilmədiyiniz, eşidib görmədiyiniz şey deyil.

Bəli, bizdə beləleri - fürsətçil, məqamdan sui- istifadə edən, səlahiyyət sahibi olduğunu arxana yerişiylə gözə soxub ətrafındakını görməzdən gələrək qapı döymədən, izin almadan, növbə gözləməyi özünə sığışdırmayan, növbələşməyi bacarmayan mədəniyyət kasadları çoxdu, həm də lap çox.

Bu elə bir məsələdir ki, burda xalqın qədimliyinin, yaxud dövlətin müstəqilliyinin gənc olub - olmaması əsla önəmli deyil.

Düzdü, yaşadığımız coğrafiyadakı torpağın altı da, üstü də sərvətlərlə doludu, bu cəhətdən zənginik. Amma görünən odur ki, nə türklüyümüz, nə də milli-mənəvi dəyərlərimiz özünü cəmi xalqımızda təcəlli etməyib, bu sarıdan çox, həm də lap çox kasıbıq.

Növbələşməyi, növbə gözləməyi bacarmaq mədəni, kübar insanlara xas xüsusiyyətdi. Gərək mədəniyyətin ola ki, təkcə özünə deyil, ətrafındakılara da hörmət etməyi bacarasan. Bildiyim və inandığım qədəri bu kasad hali-xislətdən qurtulmağın tək yolu cərimədi, qanuni cərimə. Bildiyimiz kağız üzərində qalan qanunlarla deyil, bir növü Hitler üsulu ilə, yaxud dəyənəklə də olsa, gerçək cərimə. Yeganə yolu budu. Yoxsa bu deputatdı, bu dayımdı, o əmimdi ilə heç nəyə nail olmayacağıq. Belə davam edəriksə, onu-bunu qabağa salmaqla digərlərini mənəvi əzərikсə növbələşmə mədəniyyətini əsla qazanmarıq.

Dediyim kimi, bu mədəniyyətsizlik cəmiyyətdə ona görə adiləşib ki, hər bir sahədə və məsələdə nəzərdə tutulan, müəyyənləşdirilən və qanun sayılan qaydaları yaranan bir gündən pozmuşuq və buna israrla da davam edirik. Bu bizim faciəmizdi, anlayana.

Məqsəd səndən qabaqda durandan irəli düşmək cəhdi və buna nail olmaqdır. Belə mədəniyyətsizliyi bir edirik, iki edirik, kimsə abrına bükülüb səsini çıxarmır, elə bilirik qorxur ya da ki, qanmır.

Bəzən də kimsə irəli durub haqqını tələb edir, yerdə qalanlar mal kimi durub tamaşa seyr edirmiş kimi baxır. Kimisi də fürsətdən istifadə edib “tik-tok” üçün material hazırlayır, vurhəşir xəlvətləyib video çəkir. Bax, buyuq, hələ ki, başqa cür ola bilməmişik.

İməkləmədən qalxıb ayağımız yeni yer tutandan, ağlımız söz kəsəndən, bir sözlə, yaşam tərzimizdən başlanan növbələşməməyimiz getdikcə sonradan həyatımıza, ordan da məişətimizə, daha sonra da rəsmiyyətimizə qədər nüfuz edib. Dükan, bazar, alış-veriş qaydalarımızdan tutmuş yol, küçə keçməyimizə qədər, hər yerdə yanlışlığa yol verə, verə gedirik...

Belə-belə, bir-birimizdən qabağa düşmək uğrunda “yarışırıq”. Təkrar da olsa yenə də deyirəm ki, bütün bunların bir adı var - mədəniyyətsizlik. Hansı ki, bunun əksi hər şeyin əvvəlində olmalı ki, bu fəsad dolayısıyla hüququların, duyğuların, mənəviyyatın, şərəfin, ləyaqətin pozulmasına bir az da yol açmasın. Əks təqdirdə, bu, insanın insana hörmətsizliyinin, sevgisizliyinin açıq nümayişi sayılır.

Bildiyimiz qədəri başqa xalqlarda bu qaydalara əməl olunur. Bəs bizdə niyə olmur - kimi o qədər suallar yaranır ki, bu mövzuya aid.

Məsələn, niyə növbəmə girən həmin o deputat sanki *“sən ağrısan da, ağrımasan da, mənim heç vecimə də deyil, çünki mənim adımsanım var, deputatam, istəklərim də, yaşam tərzim də, səndən üstündür”* - mesajını verdi?

**Səbəb nədir? O cür davranışına görə kimdən, hardan güc alır?**

Məndən soruşsanız deyərəm. Ki, sən xalqın, millətin vəkili deyil, düşmənisən, özü də etikadan, mərifət və mədəniyyətdən kənar, bugünümüzün, gələcəyimizin düşmənisən. Nə qədər ki, gec deyil, bəlkə papağını qarşına qoyub bir düşünəsən. Çünki mədəniyyət növbələşməyi bacarmaqdan başlayır.

**P.S.** ***Harada olmağınızdan asılı olmayaraq haqqınızı tələb edin. Bu tələbi özünüzə əksiklik bilməyin. Bilin ki, bu gün xırda hesab etdiyiniz haqsızlığa qarşı gəlməsəniz, sabah böyüyüb problemlərə çevriləcək. O zaman ona heç gücünüz çatmayacaq.***

***Gəlin, bu yolda cəm olaq. Olmarıqsa cəmiyyətdə gördüyümüz kiçik-böyük naqisliklər əsla bitməyəcək.***



*Şahnaz Salehqızı*

# Mədəniyyətin hədəfi nə olmalıdır?

Əvvəlki yazıların birində bu mövzuya ötəri toxunmuşdum, amma orda yalnız bu məsələnin ədəbiyyat qanadı barədə yazmışdım. Ümumiyyətlə, Azərbaycan mədəniyyətinin hədəfi nədir və nə olmalıdır? Ürəyəyatan qafiyə malik şeirlər, axıcı poemalar, oxunaqlı romanlar yazmaqmı, gözoxşayan tablolar çəkməkmi, əsrarəngiz mənzərələr qurmaqmı, yoxsa təkrarsız(?!) heykəllər yonmaqmı?.. Bunlardımı bizim mədəniyyətimizin hədəfləri?! Bəli, belə görünür ki, yeni, ən yeni və çağdas Azərbaycan mədəniyyətinin nişangahında yalnız bunlardır. Son iki əsrdən çoxdur ki, Azərbaycan mədəniyyəti kiçik bir kəsimin zövqünü oxşamaqdan başqa heç bir iş gorməyib. Lakin mədəni dünya xalqlarının mədəniyyətinin hədəfləri tamam başqadır. Bəlkə də elə o xalqların mədəni olmasının əsas səbəbi elə budur. Məsələ burasındadır ki, Azərbaycan mədəniyyətinin hədəfləri dünyanin mədəni xalqlarının mədəniyyətinin vəzifələridir, hədəf isə tamam başqadi. Son iki yüz əlli ildə biz bu məsələləri qarışdırmışıq, əlbəttə, öz xoşumuza olmayıb bu işlər. Son iki yüz əlli ildə Azərbaycan mədəniyyətinin xalqımızın tərəqqisinə verdiyi töhfələri göstərə bilərsinizmi? Deyəcəksiniz ki, Sabir, Cəfər, Üzeyir, Cəlil, Səməd, Süleyman, Bülbül, Bəxtiyar, Rəsul, Anar, Kəramət və s. Mən də etiraz etmirəm, bunlar istedadlı sənətkardirlar, içərisində dahiləri də var. Gözəl də əsərlər yaradıblar. Zəmanələrinin ədəbiyyat, incəsənət, və s. sahələr ilə maraqlanan kəsiminin sevimliləri olublar. Hətta, Sabirin ”Hophopnamə”sindən bir neçə səhfə oxumadan, Üzryir bəyin ”Leyli və Məcnun” operasından bir parçanı dinləmədən gözünə yuxu getməyən insanlarımız olub. Belə adamlar əhalimizin maksimum 10-15 faizini təşkil edib və yalnız mədəniyyətə həzz almaq üçün bağlanıb.

**Haşiyə:** Bu yerdə həmkarımız Zamin Hacının bir deyimi yadıma düşdü: ***"Oxucum yazır ki, sizin gündəlik kösənizi oxumasam gözümə yuxu getmir. Mən yazıram ki, millət ayılsın, bunlar da mənim yazdığımı oxuyub yuxuya gedir".*** Binəva Sabir də ”Hophopnamə” yazıb ki, oxuyub ayılaq, biz isə onu oxuyub doyunca gülüb, ardınca yuxuya gedirik.

Yerdə qalan 85 faizin mədəniyyətimizdən heç vaxt xəbəri olmayıb. Ona görə ki, heç vaxt mədəniyyətimiz aşağı ranqlı böyük əksəriyyətin menyusuna hesablanmayıb, orada onları maraqlandıran heç nə olmayıb.

Çar Rusiyası devrildikdən sonra, sovet hakimiyyəti qurulana qədər mədəniyyətimiz bu istiqamətdə intibah dövrü yaşayıb. Sabir də, Mirzə Cəlil də, digərləri də məhz o dövrün tələbləri ilə xalqın tərəqqisini hədəf götürüb. Amma bu da cəmi bir neçə il çəkdi, xalqın inkişafına töhfə verməyi hədəfləyən bütün mədəniyyət xadimləri sovet hökuməti tərəfindən sıradan çıxarıldı. O dövrdən indiyə qədər Azərbaycan mədəniyyəti - xaqın mədəniyyəti xalqa deyil, iqtidarlara işləyib. Bu dövrdə - çar Rusiyasının işğalından indiyə qədər Azərbaycan mədəniyyət xadimləri kifayət qədər şedevrlər yaradıb. Amma onların, çox kiçik istisnalarla, hamısı təmənnalı və ya sifarişli tərənnüm əsərləridir. Ədəbiyyat, incəsənət, rəngsazlıq və sair baxımdan yüksək qiymətləndirilən əsgərlərimizin böyük əksəriyyəti kimlərinsə, nələrinsə tərənnümünə həsr edilib. Xalqın problemlərini və onlardan çıxış yollarını göstərən mədəniyyət xadimlərimiz ya olmayıb, ya da çox az olub. Onlar həmişə kimlərinsə ”ayı xidməti” sayəsində kölgədə qalıb və tezliklə sıradan çıxarılıb.

Məsələni bir qədər sadələşdirsək, mədəniyyətimiz həmişə xalqın əsas hissəsindən ayrı düşüb. Çünki son 250 ilin bütün iqtidarları mədəniyyət xadimlərimizi ”saray xadimləri”nə çevirə bilib. Mədəniyyətimizin ayaqda qalaraq parlayan bütün ünlü simaları saraydan qidalanıb və onun sifarişini yerinə yetirib, yerli, yersiz onu tərənnüm edib. Bu sxemə uymayanlar Cavid, Müşfiq, Xəlil Rza və digərləri kimi müxtəlif yollarla sıradan çıxarılıb.

Əslində xalqın mədəniyyəti onun problemlərini və ondan çıxış yolkarını bədii vasitələrlə xalqa çatdırmalıdır ki, xalqın mədəniyyəti inkişaf etsin. Xalq mədəniyyətinin hədəfi məhz bu olmalıdır. Daha mədəniyyət xadimləri gedib padşahı, vəziri, vəkili, qazını tərənnüm etməməlidir. Mədəniyyət və onun daşıyıcıları olan şəxslər xalqa öz əsərləri və davranıslarının ilə nümunəvi örnəkləri bədii-poetik, estetik-siyasi dildə təqdim etməlidir. Nümunələr xalqın inkişaf etdirilməsi üçün çox böyük təsirə malikdir.

Müasir dönəmdə nümunə göstərişinin təsirləri barədə oxucularımıza bir örnək vermək istərdik. Bakıda keçrilən beş tur ”Formula 1” yarışlarında Azərbaycan Bayrağının təsvirləri trekin (yolun) hərəkət hissəsinə həkk edildi. Əvvəl Azərbaycan Bayrağını anqlosaksonların şinləri tapdaladı, sonra isə Bakı camaatı, polis nəfərləri gah ayaqla, gah bahalı avtomobillərinin şinləri ilə rəngi itənə qədər tapdaladılar. Bu sətirlərin müəllifi həmin məsələyə dair bir neçə məqalə yazdı, zəng edib cavabdeh şəxslərə başa saldı ki, bu dövlət bayrağıdır, şərəfimizdir, bunu tapdalamaq olmaz. Fayda vermədi, düz beş il o bayrağı tapdaladıq və tapdalatdıq. Bu arada Rəcəb Tayyib Ərdoğan beynəlxalq sammitlərdə onun yerini işarələmək üçün qoyulmuş Türk bayrağını hörmətlə yerdən götürüb sol döş cibinə qoyması bizə bir dərs oldu. Axır ki son iki ”Formula 1” yarışlarında Azərbaycan bayrağı trekin hərəkət hissəsinə həkk edilmədi. Şükür ki, Ərdoğan bizə bu işdə də dərs verə bildi.



Bu məsələyə dair başqa bir nümunə də vermək istərdik. Daha doğrusu, çoxdan izlədiyimiz qısa metrajlı bir fransız filmindən söhbət açmaq istərdik. Filimdə təmiz və gözəl bir şəhər nümayis etdirilir. Bu şəhərin düz mərkəzində yaşıllıqlara və meyvə bağlarına qərq olmuş bir park var. Şəhər əhalisi istirahət və piknik üçün həmişə bu parka gəlir. Parkın girişində istirahət üçün lazım olan hər şey satılır. Şəhər əhalisi evdən əlibaş gəlib, bağın girişində bazarlıq edərək bir ağacın altına çəkilir. Ağacların altında da istirshət üçün hər cür şərait yaradılıb. Quşlar cəh-cəh vurur, ahəngdar musiqi səslənir, rəngarəng işıqlar sayrışır, bağin gözəlliyi sakinləri məftun edir. Birdən xaricdən gəlmiş, bağda istirahət üçün sakinlənən bir turist əlindəki boş paketi zibil qutusuna deyil, yerə atır. Dərhal musiqi dayanır, quşlar susur, parkın xidmət personalı xidmətinə, istirahətə gəlmiş şəhər sakinləri istirahətinə ara verərək diqqətlə paketi yerə atan əcnəbi turistə baxır. Sanki ağacların da diqqəti bu turistin üzərinə fokuslanır. Parkda bir anlığa həyat donur, hətta, sayrısan işıqlar belə sönür. Bütün istirahətçilərin diqqətini öz üzərində hiss edən əcnəbi turist sanki bir tonluq daş qaldırırmıs kimi, əyilib atdığı paketi yerdən götürüb yaraşıqlı tullantı qutusuna atır. Bununla da parkda həyat yenidən canlanır, quşlar cəh-cəh vurur, musiqi dilə gəlir, işıqlar sayrışır, insanlar isə əcnəbi turisti böyük bir cəzadan əfv edirmiş kimi gülümsəyərək istirahətlərini davam edirlər.

Buyurun, bu fransızların bəlkə də ən az təsirə malik ekran əsəridir, çünki uşaqlar üçün nəzərdə tutulub. Çoxdan izləmişəm, adı yadımdan çıxsa da, sətirlər irəlilədikcə o kinolent yenidən xəyalımda canlanır.

Cağdaş Azərbaycan mədəniyyətindən belə bir nümunəvi əsər göstərə bilərikmi? Əlbəttə, xeyir... Bəli, cənablar, məhz buna görə xalqımızın böyük əksəriyyəti «mədəniyyətsizdir». Ona görə ki, hakimiyyətlər hamısı bu xalqın mədəniyyətini əlindən alıb, cilovlayıb, istədiyi tərəfə çapıb və çapır. Xalq isə mədəniyyətdən çox, lap çox uzaq düşüb. Xalqın mədəniyyətinin əsas hədəfi xalqı bədii vasitələrlə tərbiyə etmək, onun problemlərini qabartmaq və həlli yollarını göstərməkdir. Lazımdırsa, lap xalqa mədəni şəkildə sillə də vurmalıdı. Mədəniyyət xalqa təsir etməyin, onu inkişaf etdirməyin yollarını axtarıb tapmalıdır. Komediya da, detektiv də, roman da, povest də, poema da, kino da, rəssamlıq da, heykəltaraşlıq da geniş mənada məhz xalqın inkişafına xidmət eləməlidir. Edirmi, cənablar?!



Akif Nəsirli

## M.Ə.Rəsulzadəyə həsr olunan seminar məşğələ keçirilib



Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində istehsalat təcrübəsi keçən Bakı Dövlət Universitetinin (BDU) tələbələri üçün Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan siyasətçi və publisist, milli istiqlal hərəkatının fəallarından olan Məmməd Əmin Rəsulzadə haqqında növbəti seminar məşğələsi keçirilib.

Məruzəni muzeyin Yeni və müasir Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Göyərçin Mustafayeva təqdim edib. Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 105-ci ildönümü ərəfəsində keçirilən seminarda bir çox ziyalıların yaradıcılığında milli istiqlal ideyalarının ifadəsi barədə danışılıb. Bildirilib ki, bu ziyalılar Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdir və onların yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir.

Məruzəçi belə ziyalılardan biri olan M.Ə.Rəsulzadənin mədəniyyət, tarix və ədəbiyyat problemlərinə həsr etmiş elmi əsərləri, məqalə və məruzələri ilə xalqı azadlığa və istiqlala səsləyən şeirləri haqqında dinləyicilərə məlumat verib.

Seminarda, həmçinin Məmməd Əmin Rəsulzadənin əsərlərindən nümunələr səsləndirilib.

# Dəniz dərin olsa da, problemi dərin olmasın

**Mənsub olduğumuz ölkənin milli sərvəti çox və rəngarəngdir. Bu, bəlkə də təkrarçılıq kimi görünə bilər. Amma malik olduğumuz təbii sərvətləri diqqətə çatdırmaq və onu qorumaq, dəyərini bilmək də zənnimcə, çox təbiidir...**

Bu sırada ölkəmizin milli sərvətlərindən biri Xəzər dənizidir desək, səhv etmərik. Bunu isbat etməyə də ehtiyac yoxdur. Lakin problem olduğunu deməyə ehtiyacı olan bir sıra məsələ var ki, onu da zaman-zaman gündəmə gətiririk.

Beləliklə, hazırkı mövzumuz Xəzər dənizinin bugünkü səviyyəsi ilə bağlıdır. Bu istiqamətdə həmsöhbətimiz də tanınmış alim, ekoloq, bu sahənin mütəxəssisi Telman Zeynalovdur.



## Telman Zeynalov: “Xəzər dənizinə müdaxilə etmək olmaz”

T.Zeynalov Xəzərlə bağlı hazırda yaşanan məsələyə münasibət bildirərək söyləyir ki, dənizin səviyyəsinin aşağı düşməsinin səbəbi öncə təbii proseslə bağlıdır. Belə ki, Xəzərin suyunun səviyyəsinin enməsi prosesi hələ keçən əsrin 20-ci illərindən başlayıb: *“Bu proses 40-cı illərdən sonra da davam edib. Dəniz suyunun qalxması prosesi isə 1977-ci ildən başlayıb. Qeyd edim ki, Xəzərin suyunun səviyyəsi 1960-65-ci illərdə hardasa, iki metr yarım aşağı düşmüşdü. O vaxt H.Əliyev məsələ qaldırdı ki, Azərbaycanda balıqyetişdirmə zavodu açılsın. Müvafiq qərar verildi və həmin zavod tikildi. Lakin on il sonra dənizin səviyyəsi qalxmağa başladı və həmin zavod da suyun altında qaldı. Ona görə deyirlər ki, Xəzərin və çayların məcrasına müdaxilə etmək qəti qadağandır. Çünki onlar gah quruyur, gah da su gəlir. Bu da iqlimdə gedən proseslərlə əlaqədardır”.*

T.Zeynalov söyləyir ki, əksəriyyət Xəzərin suyunun qlobal istiləşmə səbəbindən buxarlanıb getdiyini deyir. Amma bu, düzgün yanaşma deyil: *“Xəzərin suyunun səviyyəsinin artıb-azalmasının əsas səbəbindən biri Volqa çayı ilə bağlıdır. Rusiya kənd təsərrüfatını inkişaf etdirmək üçün Volqa çayında yeni bir su anbarı tikib. Ona görə də Xəzərə düşən suyun miqdarı qat-qat azalıb. Bundan başqa, Kür çayının vəziyyəti də göz qabağındadır. Bütün bunlar əslində, təbii proseslərdir. Lakin qalan səbəb kimi, Xəzərin suyunun səviyyəsinin gah qalxıb, gah da enməsini alimlər indiyədək aydınlaşdıra bilmirlər”.*

Həmsöhbətimiz qeyd edir ki, son bir ayda Bakıda iqlim tamamilə dəyişib. Buna görə də düşən yağıntının nəticəsində dənizin səviyyəsi qalxa bilər. Eləcə də, Sakit okeanın təsiri nəticəsində dəniz suyunun səviyyəsi qalxa bilər: *“Mən keçən əsrin 70-ci illərində hidrometerologiya sahəsində işləyirdim. Oranı bağlayıb Ekologiya Nazirliyinə verdilər. Halbuki o sahənin mütəxəssisləri bu sahəni dərindən araşdırırdı. Amma indi heç nə öyrənilmir. Çünki Azərbaycanda elm ölüb. Elmi ocaqlar yaradılmalıdır, dövlət onları avadanlıqlarla təmin etməlidir. Ondan sonra iş aparılmalı, müvafiq araşdırmalar olmalıdır. Hazırda bütün idarələr, elmi ocaqlar özünümaliyyələşdirmə sisteminə keçib. Belə olan vəziyyətdə Xəzəri öyrənmək işini kim maliyyələşdirəcək?”.*

T.Zeynalov onu da qeyd edir ki, son dövrlərdə yer oxu öz istiqamətini xeyli dəyişdirib və bu da dənizin səviyyəsinə təsir edib. Baş verənlər isə istər-istəməz dənizdə olan biomüxtəlifliyə də təsir edir: *“Xəzərdə biomüxtəliflik də azalır. Ərazilər Azərbaycanda bu və ya digər qurumlar tərəfindən zəbt edilibsə, Rusiya və Qazaxıstanda tamamilə başqa vəziyyətdir. Orda nəzarət çox zəifdir. Ona görə də orada brokonyerlər istədiklərini edirlər, bu da suitilərin məhv olmasına gətirib çıxarıb. Hər il dənizdə yüzlərlə, beş yüzlərlə suiti məhv olur. Balıqları vəhşicəsinə məhv edirlər. Xəzər dənizinin qara kürüsü dünyada ən bahalı kürüdür. Onun mənsub olduğu dənizə də qətiyyən müdaxilə etmək olmaz”.*

**Nigar Orucova**

# "1992-ci ildə icra başçısı Şuşada mənə ev verib - İndi isə Şuşaya köçməyimə izn verilmir..."



*“Deyirlər ki, xeyr, sən Malıbəyli kəndinin qeydiyyatındandasan, ona görə də nə vaxt Malıbəyli bizim dövlətimizin nəzarətinə keçib orada kənd sakinləri üçün ev tikilsə, oradan sənə də ev verilər. Malıbəylidə isə, bilirsiz ki, 44 günlük savaşdan sonra Şuşa və Hadrutdan köçmüş ermənilər üçün binalar tikirlər...”*

*“1992-ci ilin, səhv etmirəmsə, fevral ayında, Malıbəyli, Quşçular kəndləri sakinlərinin erməni terrorçularının mühasirəsindən çıxmasında bir tabor komandiri kimi göstərdiyim xidmətlərə görə mükafat olaraq Şuşa rayonu İcra Hakimiyyətinin sabiq başçısı Nizami Bəhmənov və Şuşa şəhər sovetinin sədri Vaqif Hüseynov Şuşada keçmiş “26-lar” küçəsinin arxa tərəfində yenicə tikilmiş 9 mərtəbə binada mənə üçotaqlı ev və 10 min rubl pul verdilər”.*

Bunu açıqlamasında tanımış Qarabağ qazisi, polkovnik Azay Kərimov söyləyib.

*“Şuşada mənə bir döyüşçü komandir kimi mükafat olaraq verilmiş evin mənim adıma orderi-filanı, hər bir sənədi var idi. Nizami Bəhmənov dünyasını dəyişib. Allah rəhmət eləsin! Ancaq Vaqif Hüseynov həyatdadır, o, eləcə də digər şuşalılar və hərbçi yoldaşlarım bunu təsdiqləyə bilər. Təəssüf ki, evimin sənədləri Şuşanın işğalı zamanı orada qalıb. O günlər digər əsl hərbçi və könüllü döyüşçülər kimi, mənim də əsas məqsədim Şuşanın müdafiəsi üçün mümkün olanı etməkdə idi. Sənəd-filan götürmək qətiyyən yada düşmürdü. Hələ heç döyüşlərdən imkan tapıb o evdə bir dəfə rahat oturub çay içə bilməmişdim. Çünki mən o vaxt subay bir hərbçi idim və ermənilərlə döyüşməkdən evdə qalmağa imkan, vaxt da yox idi; əsgərlərlə birlikdə 777 saylı hərbi hissənin Şuşadakı 3 saylı internat məktəbində qurulmuş kazarmalarında qalırdım. Ancaq evin içində əşyalarım, pal-paltarım var idi. Və dediyim kimi, evin bütün sənədləri verilsə də, döyüşlər vaxtı olduğundan rəsmi qeydiyyata düşməyə macal tapmamışdım. Bu günlərdə bu haqda Şuşa rayon İcra Hakimiyyətinə müraciət etdim ki, məni rayon mərkəzinə qeydiyyata alıb Şuşaya köçməyimə şərait yaratsınlar. Cavab verdilər ki, xeyr, sən Malıbəyli kəndinin qeydiyyatındasan, ona görə də nə vaxt Malıbəyli bizim dövlətimizin nəzarətinə keçib orada kənd sakinləri üçün ev tikilsə, oradan sənə də ev verilər, gedib yaşayarsan. Malıbəyli kəndi də bilirsiz ki, hal-hazırda hələ Rusiya “sülhməramlı” hərbi kontingentinin nəzarətində və faktiki separatçı erməni rejiminin əlindədir. 30 ildən çox işğal dövründə Malıbəyli, demək olar ki, Xankəndinə bitişib və oranın adını “Stepanakert”in “Açapnyak” məhəlləsi qoyub 2021-ci ilin yazından kəndimizin ərazisində 44 günlük savaşdan sonra Şuşa və Hadrutdan köçmüş ermənilər üçün binalar tikirlər. Odur ki, hələ Allah bilir, bundan sonra neçə illər gözləməliyəm ki, Malıbəylidə ev tiksinlər və oraya köçəm... Buna görə də mən cənab Ali Baş Komandan, Prezident İlham Əliyevə müraciət edirəm ki, I Qarabağ savaşındakı xidmətlərimi, eləcə də uzun illər zabit kimi Azərbaycan ordusunda qulluq etməyimi nəzərə alıb mənim Şuşa şəhərində qeydiyyata alınmağım və oraya köçürülməyimə şərait yaradılması üçün müvafiq qurumlara lazımi göstəriş versin”* - deyə döyüşçü polkovnik bildirib.



**Sultan Laçın**

18 may 2023-ci il
www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru




# Ukrayna ordusu uğur qazanmağa başladı

**Moskva hədəf və planı dəyişir**

**Rusiya qoşunları Ukrayna ordusunun əks-hücumundan əvvəl Baxmuta hücumlarını gücləndirir.**

Bu barədə ABŞ-ın Müharibə Araşdırmaları İnstitutu (ISW) məlumat yayıb.

Bir neçə gün əvvəl 4 Rusiya batalyonunun Baxmut istiqamətində yerləşdirildiyi bildirilir. Donetsk separatçılarının lideri Denis Puşilin bunu "cinahların sabitləşdirilməsi" adlandırıb.

Artıq ruslar dünən Baxmutda müəyyən qədər irəliləməyə nail olublar.

Amerikalı ekspertlər deyirlər ki, hazırda Rusiya qüvvələri əsas səylərini Baxmuta yönəldiblər. Ukrayna isə dəfələrlə lokal əməliyyatlar keçirməyi hədəflədiyini vurğulayıb.

ISW-nin iddiasına görə, cəbhənin digər ərazilərindən Baxmuta yeni qüvvələr göndərən Rusiya "Vaqner"in şəhərə hücumunun zəifləməsindən narahatlığını göstərir. Ukrayna ordusunun Baxmut ətrafında müəyyən uğurları da Rusiyanı burada taktiki hücum səylərini daha da artırmağa sövq edə bilər. Bundan başqa, Kreml Baxmutun ələ keçirilməsini Ukraynanın əks-hücumu zamanı mümkün itkiləri qarşısında "qələbə" kimi təqdim etmək niyyətindədir.

Durumun getdikcə ağırlaşması və Moskvanın prioritetlərindəki dəyişikliklər Rusiyanın Ukraynanın əks-hücumunu dəf etmək hazırlığını poza bilər.

Eyni zamanda, Ukrayna Silahlı Qüvvələri son günlərdə Baxmutda müəyyən uğurlar qazanıb. Mayın 16-na olan geolokasiya görüntüləri göstərir ki, Ukrayna ordusu Baxmutun şimal-qərbində irəliləyib.

*Mənsur Rəğbətoğlu*

**"Dünya beynəlxalq hüquq qaydaları ilə birləşməlidir; təcavüzkara silah yardımı edənlər onun ortağına çevrilir və məsuliyyət daşıyır..."**

# Gözlənilməz sülhməramlı: Rusiyanın müttəfiqi Moskva və Kiyevi barışdırmaq istəyir...

**"Bu missiya Afrika üçün çox vacibdir, çünki Ukrayna münaqişəsi qitə ölkələrinə təsir edir..."**

**Baxmut uğrunda döyüşlərin davam etməsi və Ukraynanın gözlənilən əks-hücumu fonunda Cənubi Afrika Respublikasının prezidenti Siril Ramafosa iki Vadimiri-Putinlə Zelenskini barışdırmaq təşəbbüsü ilə çıxış edib. Bu barədə "dw.com" nəşri məlumat yayıb.**

Cənubi Afrika Respublikasının (CAR) rəhbəri bəyan edib ki, Zambiya, Seneqal, Konqo Respublikası, Uqanda və Misirlə əməkdaşlıq çərçivəsində müharibənin nizamlanması üzrə plan işləyib hazırlayıb. Bu təklif yaxın günlərdə Kiyev və Moskvanı ziyarət edəcək xüsusi nümayəndə heyəti tərəfindən təqdim ediləcək.

Ramafosa qeyd edib ki, Rusiya və Ukrayna liderləri sülhməramlı təşəbbüsün təfərrüatlarını dinləməyə razılıq verib: ***"Mənim iki prezidentlə söhbətim göstərib ki, onların ikisi də Afrika liderlərini qəbul etməyə və bu münaqişəyə necə son qoymağı müzakirə etməyə hazırdır. Bunun baş tutub-tutmayacağı qarşıdakı danışıqlardan asılı olacaq".***

Afrika liderlərinin niyyəti barədə BMT-nin baş katibi məlumatlandırılıb, ABŞ və Böyük Britaniya hakimiyyəti isə bu təşəbbüsə "ehtiyatlı" dəstək ifadə edib.

CAR prezidenti Afrikanın dövlət başçılarını sülhməramlı planın işlənib hazırlanmasına nəyin sövq etdiyini izah edib: ***"Bu missiya bir çox aylar ərzində müzakirə edilib. Afrika liderlərinin rəhbəri bunun Afrika üçün vacib olduğuna təkid edib, çünki Ukraynadakı müharibə qitə ölkələrinə təsir edir, ərzaq məhsulları və yanacağın qiymətlərinin artmasına gətirib çıxarır. Həmçinin bu, böyük iş naminə edilir".***

Siril Ramafosa Rusiya prezidenti ilə mayın 12-də, onun ukraynalı həmkarı ilə ertəsi gün ünsiyyətdə olub.

Kreml CAR və Rusiya rəhbərləri arasında söhbətin baş tutduğunu təsdiqləyib. Məlumat verilir ki, Vladimir Putin ***"Siril Ramafosa tərəfindən Afrikanın bir qrup liderlərinin Ukrayna münaqişəsinin nizamlanması perspektivlərinin müzakirəsində iştirakı barədə ideyasını"*** dəstəkləyib.



CAR həmkarı ilə telefon söhbəti barədə Vladimir Zelenski də danışıb. O, bəyan edib ki, prezidentlər ədalətdən, habelə ***"dünyamızın beynəlxalq hüquq qaydaları ilə birləşməli olmasından"*** danışıb.

***"Təcavüzkara silahla kömək edən hər kəs onun ortağı olacaq və mütləq məsuliyyət daşıyacaq. Mən cənab prezidentə dünyanın, bütün qitələrin, Afrikanın ölkələri ilə birlikdə bizim sülh düsturumuzun gerçəkləşməsi üçün birgə işə çağırış etdim",*** - Zelenski əlavə edib.

Görünür, Ukrayna prezidenti bundan öncə CAR-ın Rusiyaya silah tədarükü barəsində dərc edilən məlumata bu cür münasibət bildirib. Bu ittihamı şərh edən Afrika ölkəsinin hakimiyyəti müstəqil araşdırma aparacağını vəd edib.

Cənubi Afrika Respublikası Rusiya ilə yanaşı BRİKS iqtisadi bloka daxildir. Bu ölkələr arasında tərəfdaşlıq münasibətləri mövcuddur. Bu səbəbdən Qərbdə CAR Afrika qitəsində Moskvanın ən yaxın müttəfiqlərindən biri hesab edilir. Ptetoriya nümayəndələri əvvəllər Rusiyanın Ukraynada müharibəsinə dair BMT qətnamələri üzrə səsvermələrdə bitərəf qalıb.

# Rusiya daha bir strateji bölgə ilə qarşıdurmaya gedir




Mayın əvvəlində Avropa Komissiyası Rusiya Federasiyasına qarşı sayca 11-ci sanksiyalar paketinin hazırlanmasını başa çatdırıb və onu təsdiq üçün Aİ-yə üzv dövlətlərə təqdim edib. Bu məsələ ilə bağlı danışıqlar mayın 10-da Brüsseldə başlayıb. İndiyə qədər Ukraynaya təcavüz səbəbindən tətbiq olunan sanksiyalar Rusiya iqtisadiyyatını çətin duruma salsa da, Moskva qadağalara rəğmən alternativ çıxış yolları axtarıb tapmaqdadır. Lakin məsələ ondadır ki, getdikcə daha az dövlət Rusiya ilə əməkdaşlıq etmək yolunu tutur. Hətta iş o yerə çatıb ki, Rusiyanın ən yaxın müttəfiqləri hesab olunan dövlətlər belə sanksiyalara qoşulacağını və riskə getmək istəmədiklərini ortaya qoyurlar. Rusiya mediası yazır ki, yaxın vaxtlarda Mərkəzi Asiyanın bir sıra ölkələri Rusiyaya qarşı Qərb sanksiyalarına qatıla bilər.

Bomba effekti verən bu xəbəri Rusiya Federasiyası xarici işlər nazirinin müavini Mixail Qaluzin təsdiq edib. Bildirib ki, Asiya dövlətləri Rusiyaya başa salmaq istəyirlər ki, Kremlə görə özlərini riskə atmaq niyyətində deyillər. Əlavə ediblər ki, məhdudiyyətlər qısa zamanda qüvvəyə minəcək. Rusiyalı nazir bu səbbədən də Mərkəzi Asiya dövlətlərini hədələməkdən çəkinməyib və bildirib ki, sanksiyalara qoşulmaq onlar üçün ağır nəticələrə gətirib çıxaracaq. Xatırladıb ki, Rusiya ilə əlaqələri süni şəkildə dağıdıb məhv etmək bölgə dövlətləri üçün daha ağır nəticələrə gətirib çıxaracaq. Nazir onları əmin etməyə çalışıb ki, Moskva Mərkəzi Asiya dövlətləri ilə strateji münasibətlərin möhkəmləndirilməsində maraqlıdır.

Beləliklə, şok effekti verən bu xəbər onu deməyə əsas verir ki, Moskvanın daha bir bölgəni itirmək qorxsu artır. Görünən odur ki, Mərkəzi Asiya dövlətləri Rusiya ilə sıx iqtisadi və siyasi münasibətlərə baxmayaraq özlərini çətin duruma salmaq istəmirlər. Çox güman ki, burada ilk növbədə söhbət Qazaxıstandan və Qırğızıstandan gedir. Qazaxıstanla Qərb şirkətlərinin sıx iqtisadi, ticarət münasibətləri formalaşıb. Ölkə neftinin əsas alıcıları Qərb dövlətləridir. Qırğızıstan da Avropa İttifaqı və ABŞ-la əməkdaşlığı gcləndirmək niyyətindədir. O ki qaldı Özbəkistana - prezident Şövkət Mirzoyeyev son illər Qərblə sıx iqtisadi, siyasi münasibətlər qurmaq xəttini götürüb, intqeqrasiya siyasətini gücləndirib. Rusiyaya qarşı sanksiyalara qoşulmamaq onların iqtisadi vəziyyətini çətinləşdirə bilər.

Bütün bunlar onu deməyə əsas verir ki, Kreml yaxın vaxtlarda çox ciddi çətinliklər gözləyir. Və vəziyyətdən necə çıxacağı sual doğurur. Görəsən, Kreml daha bir bölgə ilə gərginliyə getməyə üstünlük verəcək, yaxud region dövlətlərinin atacağı addıma reaksiya verməyəcək? Hər halda hər iki yol onun üçün yaxşı heç nə vəd etmir.

*Azər Nuriyev*

# Siyasi xadimlər Heydər Əliyev haqqında

**Heydər Əliyev Cənubi Qafqazda sülhün dəstəkçisi idi**

Heydər Əliyev müasir Azərbaycanın formalaşmasında mühüm rol oynamış



milli liderdir.

Bunu Gürcüstan Parlamentin Sədri Şalva Papuaşvili Milli Məclisin Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş xüsusi iclasında deyib.

Gürcü spiker qeyd edib ki, Heydər Əliyev Azərbaycan xalqının milli ruhunu gücləndirib, milli dövlətçiliyinin təməlini qoyub.

O qeyd edib ki, Heydər Əliyev səmərəli siyasəti ilə ölkəni güclü firavan dövlətə çevirdi. Ən vacibi isə xalqın ürəyini fəth etdi. Heydər Əliyev Cənubi Qafqazda sülhün dəstəkçisi idi. O, Azərbaycanla Gürcüstan arasında güclü dostluq əlaqələrinin qurulmasını təmin etmişdi. Onun müstəsna rəhbərliyi ilə Azərbaycan-Gürcüstan-Türkiyə enerji tranzit marşrutları möhtəşəm uğurların nümunəsidir. Heydər Əliyev öz müdrikliyi ilə Azərbaycan üçün böyük miras qoyub".

İordaniya Nümayəndələr Palatasının Sədri Ahmed Al-Safadi bildirib ki, Heydər Əliyev müasir Azərbaycanın qurucusudur.

Ahmed Al-Safadi deyib ki, Heydər Əliyevin dönəmində İordaniya ilə dost münasibətlər qurulub və bu münasibətlər Prezident İlham Əliyev və İordaniya kralın rəhbərliyi ilə inkişaf etməkdədir: *"Hər iki ölkə regional və qlobal məkanda uğurla inkişaf edir".*

Ahmed Al-Safadi qeyd edib ki, Heydər Əliyev hər zaman xalqının intibahı üçün çalışıb.

Qazaxıstan Parlament Məclisinin sədri Yerlan Koşanov isə qeyd edib ki, Heydər Əliyev Qazaxıstanda qardaşlıq münasibətlərinin qurulmasına çalışan şəxs kimi tanınır: *"Heydər Əliyevin dühası bütün Türk dünyası üçün oriyentirə çevrilib. Heydər Əliyev Qazaxıstanda xalqlarımız arasında səmimi qardaşlıq münasibətlərinin qurulmasına çalışan şəxs kimi tanınır. Heydər Əliyev bildirib ki, Qazaxıstanla müştərək taleyimiz, tarixmiz olub. Mən 26 il sonra demək istəyirəm ki, Heydər Əliyevin bütün ideyaları həyata keçib. Bu il Astanada Heydər Əliyevin adına yeni küçə açılıb. Bu küçənin açılma mərasimində Qazaxıstan Prezidenti qeyd etdi ki, dünya miqyaslı siyasətçinin xatirəsini əziz tutmaq bizim borcumuzdur. Prezident İlham Əliyevin apreldə Qazaxıstana səfəri ilə ölkəmizdə Heydər Əliyevlə bağlı bir sıra tədbirlərə start verildi, telekanallarımızda Heydər Əliyev həsr olunmuş film göstərdi. Azərbaycan Türk dünyasının mərkəzlərindən biridir. Heydər Əliyevin Türk xalqlarının birləşməsində böyük rolu olub. Türk Dövlətləri Təşkilatının əsası da Naxçıvanda qoyulub.*

*Bu gün Azərbaycan uğurla inkişaf edir. Azərbaycan ərazi bütövlüyünü bərpa edərək inkişafının yeni mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha böyük uğurlar əldə edəcək".*

Qırğızıstan parlamentinin (Joqorku Keneş) sədri Nurlanbek Şakiyev xüsusi iclasda çıxışı zamanı deyib ki, Heydər Əliyevin türk xalqlarının birləşməsində böyük rolu olub: *"Heydər Əliyev bir çox çətinlikləri dəf edərək Azərbaycan dövlətinin müstəqilik tarixinin əsasını qoyub və böyük uğurlar qazanıb: "Azərbaycan iqtisadiyyatının güclənməsi də məhz onun adı ilə bağlıdır. Yüksək peşəkarlığı ilə Azərbaycan dövlətinin daha çox inkişaf etməsinə zəmin yaradıb. Heydər Əliyev bütün xidmətləri nəticəsində böyük şəxsiyyət kimi xalqın yaddaşında əbədi yaşayacaq.*

*Azərbaycanda əmin-amanlığın qorunub saxlanılmasında da onun böyük xidmətləri olub. Heydər Əliyev tək müstəqil Azərbaycanın deyil, eləcə də keçmiş Sovet İttifaqında böyük iz qoyan siyasi xadim olub. Türk xalqlarının birləşməsində böyük rolu olub. Türk Dövlətləri Təşkilatının əsası da Naxçıvanda qoyulub".*

Macarıstan Milli Assambleyanın sədr müavini Sandor Lezsak söyləyib ki, Heydər Əliyev müasir Azərbaycanın qurucusudur: *"Müharibə şəraitində olan Azərbaycanda Heydər Əliyev dövlət başçısı seçildi. Onun rəhbərliyi altında Azərbaycan sabitliyə nail oldu və inkişaf edən bir ölkəyə çevrildi".*

O qeyd edib ki, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan misilsiz inkişaf mərhələsi keçib: *"Neft və qaz ixracı Azərbaycan üçün yeni imkanlar açdı. Azərbaycan və Macarstan xalqları bir-birini qardaş xalq kimi qiymətləndirir.*



*Bu gün Macarıstan və Azərbaycan bir-birinə etibar edir. Azərbaycan hər zaman Macarıstana arxalana bilər. Biz hər zaman Azərbaycana dost olaraq qalacağıq. İqtisadi və enerji sahəsində əməkdaşlığımız yüksək səviyyədədir. Azərbaycanın bizim ölkənin, ümumilikdə Avropanın enerji təhlükəsizliyində rolu böyükdür və yaxın gələcəkdə daha da artacaq. Azərbaycanın bugünkü inkişafı üçün zəmin və baza Heydər Əliyev tərəfindən yaradılıb və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".*

**Paçeko: Onun sayəsində Azərbaycan çox gözəl tanınır**

Xüsusi şəxsiyyətlər haqqında yaddaş əbədidir. Azərbaycan haqqında danışanda xüsusi şəxsiyyət kimi Heydər Əliyevin qürurla qeyd edə bilərik.

Bunu Parlamentlərarası İttifaqın Prezidenti Duarte Paçeko Milli Məclisin Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş xüsusi iclasda deyib.

O qeyd edib ki, Azərbaycan xalqı ona təşəkkür etməlidir. *"Sizin iqtisadiyyatınızın gücülü ölməsi onun uzaqgörənliyinin nəticəsidir. Onun sayəsində Azərbaycan çox gözəl tanınır və beynəlxalq aləmdə hörmətə və nüfuzua malikdir.*

*Azərbaycan multikulturalizm dəyərlərinə, sülh və əminamanlıq dəyrlərinə nail oldu. Heydər Əliyev bu işləri müstəqillikdən əvvəl və müstəqillikdən sonra da gördü. Təşəkkür edirəm ki, məni bura dəvət etdiniz və mənə imkan yaratdınız ki, tarixi şəxsiyyət haqqında danışım",* - deyə o əlavə edib

**Hanafi Gibali: Xalqların tarixində hər zaman şərəfli şəxsiyyətlər olur**

*"Azərbaycan Misirlə dərin dost əlaqələri olan dövlətlərdəndir. Xalqların tarixində hər zaman şərəfli şəxsiyyətlər olur. Allah həmin şəxsləri əmin-amanlıq üçün xalqın qarşısına çıxarır. Heydər Əliyev hakimiyyətinin dövründə ölkəsi üçün bir çox nailiyyətlər əldə edilib".*

Teleqraf.com xəbər verir ki, bu fikirləri Misir Nümayəndələr Palatasının sədri Hanafi Gibali Milli Məclisinin mayın 16-da Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə keçirilən xüsusi iclasında çıxışı zamanı deyib.

Misirli nümayəndə bildirib ki, Heydər Əliyev həm də sülhün təminatçısı olub: *"Onun bütün sahələrdə qazandığı nailiyyətlər sonradan görülən işlər üçün nümunə olub. Onun apardığı uğurlu siyasət bu gün də layiqli davamçısı İlham Əliyev tərəfindən davam etdirilir".*

*"Misir dost ölkələrlə münasibətində öz köməyini heç vaxt əsirgəmir. İndiki prezidentin ilk səfərini Azərbaycana etməsi də diqqətdən kənarda qalmamalıdır. İki ölkə arasında turizm və mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlıq sürətlə inkişaf edir. Bu da təbii ki, iki xalqın rifahına xidmət edir",* - Hanafi Gibali əlavə edib.

**Özbəkistan mediasında Heydər Əliyevlə bağlı məqalə dərc olunub**

Türk Ağsaqqalları İctimai Biriyi İdarə Heyətinin sədri, Missiya Media Qrupunun rəhbəri Ramin Əhmədovun "Azərbaycan-Özbəkistan münsibətlərinin inkişafında Heydər Əliyevin rolu" adlı məqaləsi Özbəkistanın "aniq.uz", "fikr.uz" saytlarında yayımlanıb.

Adıçəkilən ölkənin özbək və rus dillərində fəaliyyət göstərən iki media orqanında işıq üzü görəm məqalədə Özbəkistanın türk dünyasındakı yerindən və Ümummilli Lider Heydər Əliyevin ölkələrimiz arasındakı münasibələrin inkişafı ilə bağlı gördüyü işlərdən bəhs edilir.

Məqalədə eyni zamanda Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kursun bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi önə çəkilir. Bildirilir ki, Prezidentin uğuru diplomatik fəliyyəti nəticəsində Özbəkistanla münasibətlərimiz daha da inkişaf edib.

Yazıda həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın xarici ölkələr ilə əlaqələrinin inkişafında oynadığı rol əhəmiyyəti vurğulanır. Mehriban xanım Əliyevanın 2022-ci ilin noyabr ayında Özbəkistana səfər çərçivəsində Səmərqənddə Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşündən və digər addımlarından bəhs edilir.

Həmçinin, yazıda Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin iki ölkə arasında əlaqələrin inkişafı ilə bağlı fəaliyyəti öz əksini tapır.

*Tapdıq Qurbanlı*

# "DAHA BİR NEÇƏ BANK BAĞLANACAQ"

## Lisenziyası ləğv olunan bankın sahibi Mərkəzi Bankı ittiham etdi

Mərkəzi Bankın 16 may tarixli qərarı ilə daha bir bank – “Günay Bank” ASC bağlanıb. Mərkəzi Bank əsas kimi “Banklar haqqında” Qanunun 16.1.6-cı, 16.1.7-ci, 16.1.9-cu və 61.1-ci maddələrinə istinad edərək Bankın məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olmasını, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olmasını, habelə cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyini göstərib. Bununla da ölkədə fəaliyyət göstərən bankların sayı 24-ə düşüb.

Xatırladaq ki, mayın 11-də “Günay Bank” ASC-nin səhmdarlarının ümumi yığıncağının keçirilməsinə dair elan verilmişdi. Gündəliyə bankın nizamnamə kapitalının artırılması məsələsi daxil edilmişdi. Bankın son məlumatlarına görə, nizamnamə kapitalı 64,9 milyon manat təşkil edirdi.



“Günay Bank”ın sahibi Mahmud Məmmədov isə Mərkəzi Bankı qınayıb. O, bildirib ki, bankın ehtiyacı olsa da, Mərkəzi Bank ”Günay Bank”-a vəsait ayırmayıb. ***“Elə banklar vardı ki, 500-600 milyon manat kredit verirdi, bizə isə 1-2 milyon manat kredit verməyi də çox görürdü"***, - o qeyd edib.

İqtisadçı Samir Əliyev bildirib ki, “Günay Bank” ASC-nin bağlanması xəbəri bank sektorunun maliyyə dayanıqlığı və maliyyə sabitliyinə təhlükə yaratmayacaq, amma proses bununla dayanmayacaq. ***“Bir neçə bank var ki, onların bağlanmaq ehtimalı yüksəkdir. Bu, həm də ölkədə aparılan bank siyasətinin tərkib hissəsidir. Bu siyasət də ondan ibarətdir ki, neft pullarının azalması fonunda Azərbaycan iqtisadiyyatı üçün mövcud bank sayı çoxdur. Son 10 ildə bankların sayı 45-dən 24-ə endirilib. Yaxın illərdə onların sayı 20-dən də aşağı düşəcək. Bunun həm də dünyada blokçeyn texnologiyasının tətbiqi fonunda müşahidə edilən bankların sayının azaldılması tendensiyası da tələb edir”***, - ekspert qeyd edib.

“Günay Bank” ASC 1992-ci ildə yaradılıb. Bankın sahibləri Mahmud Məmmədov və Yeganə Şirinovadır. Mərkəzi Bank açıqlamasında qeyd edib ki, “Günay Bank” ASC-nin ölkənin bank sisteminin aktivlərində xüsusi çəkisi 0,6%, kredit portfelində 1%, sektorun öhdəliklərində isə cəmi 0,5% təşkil edir. 2023-cü ilin I rübünün sonuna Bank üzrə sığortalanmış (kompensasiya olunan) əmanətlər 38,5 mln. manat təşkil edir. Bankın əmanətçilərinin say etibarı ilə 99,9%-nin əmanətləri kompensasiya olunacaq. Bankın fəaliyyət göstərdikləri filialların sayı 10, şöbələrin və valyuta mübadilə məntəqələrinin sayı isə 4 olub.

# "Xatalı" inflyasiya: Cilovlanıb, amma kəndiri qıra bilər

Dünyada, eləcə də ölkəmizdə bahalaşma və inflyasiya səngiməyib. Cari ilin yanvar-fevral ayları ərzində ölkəmizdə istehlak qiymətləri indeksi 2022-ci ilin eyni dövrü ilə müqayisədə 13,9%, o cümlədən, ərzaq məhsulları, içkilər və tütün məmulatları 17,3%, qeyri-ərzaq malları və əhaliyə göstərilən ödənişli xidmətlər isə müvafiq olaraq 12,2% və 10,6% artıb.



2021-ci ildən start götürən və ötən il davam edən bahalaşma və inflyasiya tendensiyası o vaxt səngiyəcək ki, ilk növbədə enerjidaşıyıcıları ucuzlaşsın. Bunun isə nə vaxt baş verəcəyi hələ məlum deyil. Söhbət, təbii ki, qlobal miqyasdan gedir. Çünki ölkəmizdəki bahalaşma və inflyasiyada məhz idxal amili əsas rolu oynayır.

Cari ilin əvvəlindən qiymətlərin artmasına bir sıra daxili amillər də təsir göstərib. Bu da ondan irəli gəldi ki, cari ildə maaş və pensiyaların artırılacağı xəbəri verilmişdi. Artımın məbləği hələ bəlli olmadığı halda qiymətlərin yüksəlişi artıq sürətlənmişdi. Bununla belə, proses nəzarətdə olduğundan, qiymətlər relsdən çox da kənara çıxmadı.

Xatırladım ki, Prezidentin 5 yanvar 2023-cü il tarixli Sərəncamı ilə minimum əməkhaqqı yanvarın 1-dən 15% artırılaraq, 300 manatdan 345 manata, minimum pensiya məbləğisə 240 manatdan 280 manata çatdırılmaqla müavinət və təqaüdlər artırıldı. Sənədə əsasən 1,9 milyon vətəndaşı əhatə edən sosial paketin icrası üçün il ərzində əlavə olaraq 750 milyon manat vəsait xərclənməsinə qərar verildi.

İlin əvvəlindən ötən dövr ərzində qiymət artımı və inflyasiya tempi əslində daha çox ola bilərdi. Lakin hökumətin nəzarəti və Mərkəzi Bankın (AMB) pul kütləsinin idarə olunması sahəsində gördüyü bir sıra tədbirlər nəticəsində prosesi cilovlamaq mümkün olub. Ancaq bunun nə qədər davam edəcəyi bəlli deyil. İdxalın getdikcə artması təzyiqi gücləndirməkdədir. İl ərzində Tarif Şurası tərəfindən tənzimlənən qiymətlər sırasında nəqliyyatda gediş haqqından başqa digər artımlara da gedilərsə, inflyasiya sıçrayış nümayiş etdirə bilər.

Bəs, əslində bizi nə gözləyir?! Ölkədə sosial istiqamətdə həyata keçirilən ödənişlərin bahalaşma və inflyasiya tempinə təsiri artıq, arxada qalmış sayılır, yoxsa əksinə? İdxalın inflyasiyaya təsir və təzyiqi nədən hələ də neytrallaşdırılmır?! İl ərzində tənzimlənən qiymətlər sırasında nəqliyyatda gediş haqqından əlavə digər dəyişikliklərə də gedilə bilinərmi?!

Bu suallara cavab olaraq bir daha qeyd edim ki, bahalaşma və inflyasiyanın səngiməsi üçün enerjidaşıyıcıları ucuzlaşmalıdır. Hazırda bunun əksi baş verir. Dünya bazarlarında xam neft hələ 80 ABŞ dollarının altında oynayarkən OPEC+ olkələri hasilatı azaltmaq qərarına gəliblər. Bu isə qiymətləri yəqin ki, yenə 80-in üstünə qaldıracaq. Deməli, yanacaq ucuzlaşmayacaq.

Yanacağın ucuzlaşmayacağı təqdirdə qlobal bahalaşma və inflyasiyadan doğan təsir və təzyiq davam edəcək. Yəni, ölkəmizə inflyasiya idxalı səngiməyəcək. Bunu tam olaraq neytrallaşdırmaq qeyri-mümkündür. Çünki daxili bazarımız idxal məhsullarından asılı olduğundan, yerli istehsal nə qədər çox stimullaşdırılsa belə, bundan qısa müddət ərzində yaxa qurtarmaq mümkün deyil.



O ki qaldı ölkədə sosial istiqamətdə həyata keçirilən ödənişlərin bahalaşma və inflyasiyaya təsirinə, yanvarın 1-dən tətbiq edilən artımlar keçənilki tendensiyadan yüksək olsa da, artımlar artıq inflyasiyanın yeminə çevrilmək üzrədir. Ona görə də yazmışdım ki, qeyd olunan artımlar əhalinin sosial müdafiəsinin təşkilində yalnız ilin birinci yarısı üçün yararlı olacaq, bahalaşma dayanmasa, il ərzində daha belə bir addım atmağa ehtiyac yaranacaq.

Belə bir fonda il ərzində tənzimlənən qiymətlərdən hər hansı artırılarsa, bu, qabaqcadan hesablanmış, kompensasiya edilmiş şəkildə həyata keçirilməlidir. Yeri gəlmişkən, real olaraq su, elektrik enerjisi, qaz və bəzi digər növ məhsullar üzrə tarif dəlişikliyi ilə bağlı əslində müəyyən çağırışlar mövcuddur. Ancaq buna indiki şəraitdə getmək ciddi fəsadlara yol aça bilər.

***Pərviz Heydərov***

# "BİZ QIRMIZI MEYDANA GƏLMƏLİ OLACAĞIQ..."

## Bütün "qırmızı cizgiləri" keçmiş Priqojini yaşadacaqlarmı?

**Rusiyanın Ukraynaya qarşı işğalçılıq müharibəsinə qədər "Vaqner" və onun başçısı Yevgeni Priqojini nəinki beynəlxalq səviyyədə, hətta Rusiyanın özündə belə tanıyan çox az idi. Onun adı ən çox əslən azərbaycanlı olan jurnalist Orxan Camal və digər yoldaşlarının qətli fonunda hallanmağa başladı. Orxan Camal və digər iki şəxs Priqojinin "Vaqner" qruplaşmasının Afrikadakı fəaliyyətini araşdırmaq üçün bu qitədə olarkən müəmmalı şəkildə qətlə yetirilmişdilər. Rəsmi xəbərlərdə bu qətlin hansısa yerli terror qruplaşması tərəfindən həyata keçirildiyi iddia olunsa da, hamıya aydın idi ki, bunun arxasında "Vaqner" özü dayanıb...**

İndi isə ***"Vaqner"*** və Priqojin barədə yazılar, təhlillər dünyanın ən nüfuzlu nəşrlərinin səhifələrində yer alır. Priqojinin adı Beynəlxalq tədbirlərdə, ayrı-ayrı tanınmış siyasətçilərin, ölkə liderlərinin müsahibələrində hallandırılır. Doğrudur, artıq ***"Vaqner"***-in əksər Qərb dövlətləri və beynəlxalq qurumlar tərəfindən gec də olsa, terror qruplaşması kimi tanınması istiqamətində addımlar atılmağa başlayıb. Ancaq, necə deyərlər, pis reklam da reklamdır və istənilən halda, hətta bunun özü də Priqojin üçün xüsusilə Rusiya daxilində, cəmiyyətin imperiyaçılıq, şovinizm, millətçilik xəstəliyindən başını itirmiş və adını ***"vətənpərvər"*** qoyan kəsiminin gözündə böyük bir reklam kampaniyasıdır.

Bəli, bu gün Priqojin rus ***"vətənpərvərləri"***nin kumirinə çevrilib və real sorğu, səsvermə keçirilsə, istənilən tanınmış siyasətçi partiya sədri üzərində əzici üstünlük qazana bilər. Əslində o, bu "uğuru" və avtoriteti heç də ***"Vaqner"***-in hansısa qeyri-adi qələbələri, hərbi nailiyyətləri hesabına qazanmayıb. Onun ***"Vaqner"***-i az qala 10 aydır ki, Baxmut kimi rayon mərkəzi səviyyəsindəki kiçik bir şəhəri tuta bilmir. Priqojinin ictimai fiqur kimi populyarlığı ***"Vaqner"***-in ***"qəhrəmanlıqları"*** yox, Rusiya cəmiyyətinin nifrət bəslədiyi korrupsiyalaşmış, harınlamış, varlanmış hərbi–siyasi rəhbərliyin ünvanına elə həmin cəmiyyətin çox yaxşı anladığı və qəbul etdiyi vulqar ifadələrlə səsləndirdiyi söyüşlər, tənqid və təhqirlərdən qaynaqlanır.

Priqojinin Müdafiə nazirinin, generalların, dolayısı yollarla və eyhamlarla Kremlin özünün ünvanına işlətdiyi ənənəvi rus söyüşləri Rusiya cəmiyyətinin böyük hissəsinin ***"ürəyindən tikan çıxarır"***. O, təkcə generalları və digər iri məmurları yox, Putinin özünü də hədəfə alır və son çıxışlarının birində, ad çəkməsə də, Putini nəzərdə tutaraq, onun ünvanına ***"qoca mudak"*** ifadəsini işlədir, müharibəni ***"beyinsiz müharibə"***, generalları ***"suka"***, rus əsgərini isə ***"qurbanlıq"*** adlandırır. Bunlar bütün "qırmızı cizgilər"in keçilməsi deməkdir. Putinin hakimiyyəti dövründə



daha da vulqarlaşan, kobudlaşan, kriminallaşan Rusiya cəmiyyətinin isə böyük hissəsi Priqojinin dilini öz ana dili hesab edir. Nəticədə, o, özü ilə bağlı rus cəmiyyətinin hər zaman hörmətlə yanaşdığı ***"mujik"*** obrazı yarada bilib. Baxmayaraq ki, əslində, bu adam heç milliyyətcə təmiz rus da deyil. Məsələn, onun opponentlərindən və millətçi elektoratdakı rəqiblərindən biri olan İqor Strelkov (Qirkin) Priqojinin rus olmadığını bildirib. Həqiqətən də, Priqojinin biqorafiyası onun milliyyəti barədə dəqiq nəticə çıxarmağa imkan vermir. Ancaq buna baxmayaraq, Priqojin az qala rus millətçilərinin böyük hissəsinin hazırda bi̇ət etdiyi fiqura çevrilib...

Məsələ ondadır ki, hətta Boris Yeltsinin yarı-liberal və dövlət institutlarının az qala tam çökdüyü zəif idarəçiliyi dövründə belə Rusiyada hansısa qanundan kənar hərbi birləşmə və onun rəhbəri tərəfindən çoxəsrlik tarixi olan rus ordusuna, onun rəhbərliyinə, generallarına meydan oxumasına, onları milyonlarla rusiyalının və beynəlxalq ictimaiyyətin gözü qarşısında təhqir və təhdid etməsinə, alçaltmasına rast gəlinə bilməzdi. Ümumiyyətlə, keçmiş məhbusların, kriminalın toplaşdığı belə bir hərbi təşkilatın mövcudluğunu təsəvvür etmək mümkün deyildi. İndi isə belə təəssürat yaranır ki, Putin Rusiyanı heç Yeltsin qədər də idarə və vəziyyətə nəzarət edə bilmir. Adi ***"obıvatel"*** də başa düşür ki, Priqojin özünün ordu və hərbi-siyasi rəhbərlik barədə bəyanatları və davranışları ilə Rusiya



ordusuna az qala Ukrayna ordusunun vurduğu qədər ziyan vurur. Hazırda yaranmış və Rusiya tarixində analoqu olmayan bu durum Putin hakimiyyətinin, onun idarəçiliyinin Rusiyanın ordu kimi dövlətçilik sütunlarına, atributlarına, ideologiyasına və s. vurduğu zərbənin miqyasını göz önünə qoyur, eyni zamanda göstərir ki, Putin ya idarəçiliyi, ya reallıq hissini, ya da başını itirib...

Son günlərdə baş verənlər onu da göstərir ki, təkcə Rusiya-Ukrayna müharibəsi deyil, Priqojinlə Müdafiə Nazirliyi və Kreml elitası arasındakı savaş da həlledici fazaya qədəm qoyur. Artıq onun ***"Vaqner"***-inin Baxmutdakı qalıqları Ukrayna Quru Qoşunları komandanı, general Aleksandr Sırskinin dediyi kimi, özlərini siçan tələsindəki kimi hiss edirlər. Doğrudan da bu qruplaşma hazırda Baxmutda tələdədir və bu tələnin qurulmasında Ukrayna ordusu qədər Rusiya hərbi-siyasi rəhbərliyinin də ***"xidmətləri"*** var. Priqojin özü də bunu yaxşı anlayır və hər yolla ***"Vaqner"***-i Baxmutdan çıxarmağa çalışır. Lakin onun mayın 10-da bu niyyətini həyata keçirmək cəhdi uğursuzluğa düçar oldu. Verdiyi vədə baxmayaraq, ***"Vaqner"***-i Baxmut tələsindən çıxara bilmədi, Kreml buna izin vermədi.

Buna paralel olaraq isə Priqojinə və ***"Vaqner"***-ə qarşı təzyiqlər daha da artdı. Məsələn, Rusiya Dumasının üzvü, general-leytenant Viktor Sobolev ***"Vaqner"***-in qanunsuz hərbi birləşmə olduğunu elan etdi və bildirdi ki, Rusiya ordusuna səfərbər olunanlar ***"Vaqner"***-ə keçəcəkləri təqdirdə cinayət məsuliyyətinə cəlb olunmalıdır və belələrinə qanunla 15 ilə qədər iş düşür. Onun dedikləri həqiqətdir, doğrudan da Rusiya qanunvericiliyi qanunsuz hərbi birləşmələrdə iştiraka görə ağır cəzalar nəzərdə tutur. Duma komitəsində vəzifə tutan Sobolevin təsadüfi açıqlamalar verməsi, əlbəttə ki, ağlabatan deyil və onun bu fikirlərinin daha yüksək kabinetlərin sifarişi olduğu şübhəsizdir. Sobolevin dedikləri "Vaqner"-in öz sıralarını bərpa etmək cəhdlərinə vurulan növbəti zərbədir. Bunu Priqojin də gözəl anladı və məhz buna görə Sobolevə özünəməxsus formada təhqiramiz cavab verərək, onu "beyinsiz çərənçi" adlandırdı. Ancaq məsələ bununla da bitmədi.

Ötən gün ***"vaqnerçilər"*** general Sobolevə xüsusi videomüraciət ünvanladılar. Əlbəttə ki, Priqojinin sifarişi əsasında. Orada Sobolev daha ağır formada təhqir edilir. Ancaq ən əsası odur ki, Sobolevin personası üzərindən Kremlə xəbərdarlıq olunur və təhdid səsləndirilir: ***"Deputat Sobolevə demək istəyirik ki, əgər sən "üzdəniraq" buraya burnunu soxsan və ölkə sənin kimilər üzündən müharibəni uduzsa, biz Qırmızı meydana gəlməli olacağıq ki, öz xalqımızı sənin kimilərdən qoruyaq..."***

Əlbəttə ki, bu, Sobolevdən çox Kremlin ünvanına söylənən təhdiddir. Doğrudur, ***"Vaqner"***-in Qırmızı meydana qədər gedib çıxması problemlidir. Çünki arxada yüzminlərlə sayı və ***"Vaqner"***-i ilk fürsətdə parçalamağa hazır olan Şoyqu və Gerasimovun rəhbərlik etdiyi ordu, eləcə də ***"Rosqvardiya"***, milyonlarla polis və xüsusi xidmət orqanları əməkdaşları var. Onları ***"yarıb-keçmək"*** və Kremlə çatmaq asan deyil.

Ancaq ***"Vaqner"***-in dediyi kimi, müharibə uduzulsa, kimin özünü necə aparacağı, adı sadalanan qüvvələrin Kremli müdafiə edib-etməyəcəyi bəlli deyil. Odur ki, Kremldə də Priqojin və ***"Vaqner"*** təhlükəsini dərk edirlər. Hətta ABŞ Müharibə Araşdırmaları İnstitutu son hesabatında Kremlin Priqojini satqın kimi gözdən salmaq üçün mexanizmlər hazırladığını bildirib. ***"The Washington Post"***-da ABŞ kəşfiyyatının sızdırılmış sənədlərinə istinadla yayılan xəbərdə Priqojinin ukraynalılarla gizli əlaqəyə girərək, Rusiya mövqelərini onlara satmağa hazır olduğunu bildirməsinə dair yayılan xəbərlər də bu ***"əməliyyatın"*** tərkib hissəsi sayıla bilər...

Nəticədə real vəziyyəti dəyərləndirən bir çox ekspertlər Priqojinin hansısa formada aradan götürüləcəyini, onun hərbi və siyasi ***"karyera"***sının, hətta fiziki həyatının sonuna az qaldığını proqnozlaşdırırlar və bu proqnozlar kifayət qədər real, inandırıcı görünür – ***"Su səhəngi suda sınar"...***

***Cəlal Məmmədov***

# BƏQƏRƏ SURƏSİNİN MESAJLARI

**XXXIX YAZI**

*(əvvəli ötən sayımızda)*

Allah ayədə buyurur ki, Adəm Rəbbindən aldığı kəlmələrə sarıldı. Ayədəki "kəlmə" sözü fərqli anlamların ortaya çıxmasına yol açmışdır. Biz öncə "kəlmə" sözünün mənasını izah edək.

"Kəlmə" sözü ərəbcədir, "k-l-m" kökündəndir, Qurani-Kərimdə eyni kökdən olan sözlərin sayı yetmiş beşdir, bu anlamları var:

***- "danışmaq": "O elçilərin bir qismini o birilərindən fərqli qıldıq. Allah onlardan bir qismi ilə danışmış, bəzilərini də dərəcə-dərəcə yüksəltmişdi" (Bəqərə, 2/253).***

***- "Allahın vəhyi": "Halbuki bunlardan bir qrupu vardı ki, Allahın sözünü eşidirdilər, düşündükdən (qavradıqdan) sonra isə bilə-bilə onu dəyişdirirdilər" (Bəqərə, 2/75).***

***- "söz": "Rəbbinin sözü həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır" (Ənam, 6/11 Ənam, 6/115).***

***- hz.İsa: "Məryəm oğlu İsa Məsih Allahın elçisi və kəlməsidir" (Nisa, 4/171).***

***- "Allahın elmi": "Yer üzündə ağaclar qələm olsa, dəniz(lər) də (mürəkkəb), arxasından yeddi dəniz ona yardım etsə (Allahın kəlmələri yazılsa), yenə (bunlar tükənər), Allahın kəlmələri tükənməz" (Loğman, 31/27).***

***- "Allahın əmrləri": "Bir zamanlar Rəbbi İbrahimi bir sıra kəlmələrlə sınamışdı" (Bəqərə, 2/124).***

Böyük İslam alimi Rağıb əl-İsfahani "kəlmə"nin təsirli söz anlamını önə çıxarmışdır.

Dəyərli təfsir alimi Mustafa İslamoğlu yazır: ***"... əl-Kəlmin qulaqla qavranılan növünə "kəlam", göz ilə dərk edilən çeşidinə "kəlm" deyilir. Dilimizdə söz üçün istifadə edilən "dil yarası" deyiminin mənasına uyğundur. Bu söz "yaralamaq" anlamı ilə birgə müalicə üçün yaralamaq (yarmaq) mənasını daşıyan "əməliyyat" sözünün anlam dünyasını da əhatə edir. "Kəlmə" həm anlamlı bir söz, həm anlamlı bir cümlə, həm də uzun bir danışıq mənalarını daşıyır. Etimoloji baxımdan qulağın və gözün qavradığı anlamlı, təsirli hər şeyə kəlmə adı verilə bilər. Adəmin aldığı (bir oxunuşa görə Adəmə verilən) kəlmələrin qulaqla qavranılan (eşidilən) bildiyimiz kəlmələr ola biləcəyi kimi, gözlə qavranılan feili kəlmələr, könüllə qavranılan qəlbi iztirab və peşmanlıq da ola bilər...".***

Böyük təfsir alimi Təbəri hz.Adəmin aldığı kəlmələrlə bağlı dörd görüş sıralamışdır:

***a) bu görüşü Həsən Bəsri, Mücahid, Katadə, İbn Zeyd irəli sürmüşlər. Onlara görə, "alınan kəlmələr"in mənası Allahın bu ayəsi ilə açıqlanmışdır: "Ey Rəbbimiz, biz özümüzə zülm etdik. Əgər sən bizi bağışlamaz və bizə mərhəmət etməzsən, şübhəsiz (mütləq), qeyb edənlər (itirənlər) arasına girərik" (Əraf, 7/23).***

***b) bu görüşü Səid bin Cübeyr, Abdullah bin Abbas irəli sürmüşlər. Onlara görə Allahla hz.Adəm arasında bu dialoq olmuşdur:***

***- Ey Rəbbim, məni öz əlinlə yaratmadınmı?***

- Bəli.

***- Ey Rəbbim, Sən mənə öz ruhundan üfürmədinmi?***

- Bəli.

***- Sən məni cənnətə yerləşdirmədinmi?***

- Bəli.

***- Ey Rəbbim, rəhmətin qəzəbindən çox deyilmi?***

- Bəli.

***- Mən tövbəyə yönəlsəm, özümü islah etsəm, məni yenidən cənnətə qoyarsanmı?***

- Bəli.

Qeyd edək ki, bu, bir rəvayətdir, Qurani-Kərimdə qarşılığı yoxdur.

***c) bu görüşü Ubeyd bin Umeyr irəli sürmüşdür. Ona görə hz.Adəm günah etdikdən sonra Allaha belə demişdir: "Ey Rəbbim, bu günahımı alnıma məni yaratmazdan öncə Sən yazdın, yoxsa onu mən icad etdim?" Allah da cavab olaraq buyurmuşdur ki, onu səni yaratmazdan öncə mən yazdım. Hz.Adəm bu cavabdan sonra: "Bunu mənə yazdığın kimi, tövbəmi də qəbul et, məni bağışla!"***

Qeyd edək ki, bu, bir uydurmadır, saxta qədər anlayışının ortaya çıxardığı xurafədir, Qurani-Kərimin ölçüləri ilə daban-dabana ziddir, hz.Adəmin deyil, Şeytanın tezisidir.

***d) bu görüşü Abdurrəhman bin Yezid irəli sürmüşdür. Ona görə hz.Adəmin Rəbbindən aldığı kəlmələrin anlamı budur: hz.Adəm Allaha bu sözlərlə tövbə etmişdir: "Ey Allahım, Səndən başqa heç bir ilah yoxdur. Mən Səni həmd ilə təsbih edirəm. Səndən bağışlanma diləyir, Sənə tövbə edirəm. Sən mənim tövbəmi qəbul et. Belə ki Sən tövbələri çox qəbul edənsən, çox mərhəmət sahibisən".***

Qeyd edək ki, bu da bir rəvayətdir. Qurani-Kərimdə və hədislərdə hz.Adəmin dilindən belə bir dua verilməmişdir.

Təbəri bu dörd görüşdən birincisini qəbul etmiş, dəlil olaraq da bunun Qurani-Kərimdən bir ayə olduğunu göstərmişdir.

İmam Dəhhaq isə İbn Abbasdan rəvayət edərək Allahın hz.Adəmə bu üç kəlməni öyrətdiyini söyləmişdir:

***- birinci kəlmə: "Allahım, Sənə həmd edirəm. Səni hər cür nöqsanlardan uzaq tuturam. Səndən başqa ilah olmadığına, Rəbbimin Sən olduğuna şahidlik edirəm. Xəta işləyərək özümə zülm etdiyimi anladım. Tövbəmi qəbul et. Şübhəsiz, Sən tövbələri çox qəbul edənsən".***

***- ikinci kəlmə: "Rəbbim, məni bağışla, Sən bağışlayanların ən xeyirlisisən".***

***- üçüncü kəlmə: "Rəbbim, mənə mərhəmət et. Belə ki sən mərhəmət edənlərin ən xeyirlisisən".***

Qeyd edək ki, Allahın hz.Adəmə bu üç kəlməni öyrətməsi də bir rəvayətdir, Qurani-Kərimdə qarşılığı yoxdur.

Biz hz.Adəmin Rəbbindən aldığı kəlmələrin Qurani-Kərimin bu ayəsi olduğuna inanırıq: ***"(O ikisi, Adəm və Havva) dedilər ki, ey Rəbbimiz, biz özümüz özümüzə zülm etmişik. Əgər bizi bağışlamaz, bizə mərhəmət etməzsən, şübhəsiz (mütləq), qeyb edənlər (itirənlər) arasına girərik"*** (Əraf, 7/23).

Hz.Adəm Rəbbindən aldığı kəlmələrə (vəhyə) sarılaraq qurtuldu. Biz də Allahın ipi ***("həblullah")*** (Ali-İmran, 3/103) olan Qurani-Kərimdən sımsıx tutaraq, yəni Onu anlayaraq, dəyərlərini həyatımıza daşıyaraq, ölçüləri ilə yaşayaraq xilas olacağıq.

Ayədə buyurulur ki, Adəm kəlmələri Rəbbindən aldı. Burada Allahın məhz ər-Rəbb adı seçilmişdir ki, bu, təsadüfi deyil. Belə ki Allahın ər-Rəbb adı birbaşa tərbiyə ilə bağlıdır. Ər-Rəbb olan Allah tərbiyə edən, tərbiyəsində tayı-bərabəri, bənzəri olmayandır. O, hər şeyin Rəbbidir (Ənam, 6/164), O, göylərin, yerin və bunlar arasındakı hər şeyin Rəbbidir (Şuara, 26/24)... Hz.Adəm kəlmələri Rəbbindən aldı, yəni Allah kəlmələrin də Rəbbidir, O, hz. İbrahimi kəlmələrlə sınadığı kimi, hz.Adəmi də kəlmələrlə təmizlədi (tərbiyə etdi). İmtahanda məğlub olan hz.Adəmin kəlmələrlə tövbəsi, bu tövbənin qəbulu Allahın ər-Rəbb adının bərəkəti ilə gerçəkləşdi.



Allahın ər-Rəbb adı Onun sonsuz şəfqət və mərhəmətinə işarə edir. Belə ki O, tərbiyənin əsasına sevgini, mərhəməti, bağışlamağı qoymuşdur. Ona görə də xəta edən hz.Adəmin üstündən xətt çəkmədi, Ona kəlmələr öyrətdi, bu kəlmələrlə tövbəyə yönələn hz.Adəmin tövbəsini qəbul etdi, Onu yer üzünün xəlifəsi seçdi...

Ayədən çıxış edərək bir suala da cavab vermək istəyirik. Allahın elçiləri günah edə bilərlərmi? Elçilər Allahın vəhyinin insanlara çatdırılmasında heç bir xətaya yol verməzlər. Ancaq birbaşa vəhylə bağlı olmayan məsələlərdə kiçik xətaları ola bilər. Qurani-Kərim elçilərin xətalarına örnəklər vermişdir (Hud, 11/37; Muminun, 23/27).

**2) "(Allah) da onun tövbəsini qəbul etdi. Çünki O, bəli, O idi tövbələri qəbul etmə məqamında olan, hər işində mərhəmət sahibi olan".**

Allah Adəmi və xanımını cənnətə (gözəl bir bağçaya) yerləşdirdi. Yasaq ağaca yaxınlaşmayın buyurdu. Yasaq ağacın (yasaq qoymaq Allahın haqqıdır) bir neçə işi var. Birincisi, o, insana həddini öyrədir, deyir ki, insan Allahın qoyduğu həddi aşmamalıdır, həddini aşan ziddinə çevrilər (insan şeytanlaşar). İkincisi, yasaq ağac imtahanın simvoludur, hz.Adəm və Havva bu imtahanda məğlub oldular. Ey insan, bu dünya imtahan dünyasıdır, hər an imtahandasan, sən Allaha qarşı gələrək bu imtahanı qazana bilməzsən, imtahanı qazanmağın tək yolu var, o da Allaha təslim olmaq, yəni Onun buyurduğu kimi yaşamaqdır. Üçüncüsü, yasaq öyrətmə metodudur, belə ki yasaq marağa səbəb olur (öyrənməyin əsası maraqdır), iradəni hərəkətə keçirir, maraq axtarışa yönəldir, axtarış kəşfin yolunu açır, kəşf də inkişafa təkan verir. Allah varlıqlara qoyduğu elmi onun içində gizləmiş, maraq yaratmışdır, məsələn, çiçəklərin içində şəfa var, ancaq o şəfanı axtarıb tapmaq insanın işidir, bu da maraqla, elmlə, axtarış və kəşflə mümkündür.

Hz.Adəm yasaq ağac vasitəsi ilə bunları öyrənmişdir: iradəsini kəşf etmiş, həddini bilmiş, mükəmməl varlıq olmadığını anlamış, imtahan dünyasında yaşadığını qavramış, şeytanın onun düşməni olduğunu dərk etmiş, günahlardan təmizlənmə yolunun tövbə olduğunu, tövbənin necə ediləcəyini başa düşmüş, ümidə, Allahdan heç vaxt, heç bir şərt altında ümidin kəsilməyəcəyinə inanmışdır... Adəm şeytanın düşmən olduğunu bilirdi, təcrübə ilə də öyrəndi. Adəm və Havvanın günahının hamısını Şeytanın üzərinə atmaq da doğru deyil. Bu aldanışda onların da məsuliyyəti var. Adəmin sıxıntısı Şeytanın onun düşməni olduğunu unutmasıdır. Düşməninə inanmaq insanı günahlara sürükləyər, məğlub edər.

Allahın Adəmin tövbəsini qəbul etməsi ***"əsl/ilk günah"*** anlayışını rədd edir. Bu anlayışa sahib olanlar iddia edirlər ki, güya hz.Adəmin tövbəsi qəbul olunmamış, günah onun nəslinə keçmişdir. Yəni bütün uşaqlar anadan günahkar doğulurlar, hz.İsa da insanlığı bu günah ləkəsindən təmizləmək üçün özünü fəda etmişdir.

Ayədə Allahın ət-Təvvab adına yer verilmişdir. O, ət-Təvvab olan Allahdır, tövbə edənə yönələn, qullarını tövbəyə yönəldən, tövbələri hər zaman qəbul edəndir. Tövbə şüurlu davranışdır, ağıl öz işini yerinə yetirir, nəticədə, insan xətasını anlayır. İkinci addımda insan xətasında israr etmir, peşman olur, sonda da Allaha söz verir və sözünü yerinə yetirir.

Tövbə deyir ki, ey insan, sən mükəmməl deyilsən, günah etmək imkanın var, günah işləsən, hz.Adəm kimi ol, günahını müdafiə etmə ki, bağışlanasan. Tövbə fitrətə dönüş, arınma, özünütənqiddir, iradənin haqqını verməkdir. Tövbə ümiddir, ümid etməyən tövbəyə yönəlməz. Tövbə öyrədir ki, insan dəyişə bilən varlıqdır. Allah insandan qüsursuzluq istəmir, buyurur ki, xəta edəndə tövbəyə yönəl. Örnək və ibrətə bax. Örnək olan hz.Adəmdir, O, tövbə etdi, nəticədə, bağışlandı, üstəlik, yer üzünün xəlifəsi seçildi. İbrət olan da Şeytandır, o, xətasında israr etdi, Allaha iftira atdı, tövbəyə yönəlmədi, nəticədə, lənətləndi, Allahın rəhmətindən uzaq qaldı.

Ayə bizə öyrədir ki, Allahın tövbə qapısı hər an açıqdır: ***"Ey hədlərini aşıb özlərini israf edən qullarım! Allahın rəhmətindən əsla ümid kəsməyin! Allah bütün günahları əfv edə bilər. Çünki O, bəli, Odur, sınırsız bağışlayıcı olan, mərhəmət qaynağı olan"*** (Zumər, 39/53).

Ayə Allahın ər-Rəhim adı ilə bitir. O, tövbələri qəbul edəndir, mərhəmətlidir. Ər-Rəhim olan Allah daima mərhəmət edən, işində çox mərhəmətli olandır. Qurani-Kərimdə ər-Rəhim adı ət-Təvvab adı ilə doqquz dəfə birlikdə gəlmişdir (hamısı Mədinədə nazil olan surələrdədir). Hamısında da ət-Təvvab adı ər-Rəhim adından öncədir. Yəni O, tövbə edənin tövbəsini qəbul edər, üstəlik, ona ər-Rəhim ismindən də pay ayıraraq üzərinə mərhəmət yağışı yağdırar. Günah etmək kirlənmə, fitrətdən uzaqlaşma, Allahla araya pərdə qoymadır. Sən günahını tövbə suyu ilə yu ki, O sınırsız mərhəmət sahibinin rəhmətini qazanasan.

Qurani-Kərimdə "nasuh tövbə" anlayışı da var (Təhrim, 66/8), "səmimi tövbə" anlamını daşıyır, yəni etdiyin günaha bir daha geri dönməmək şərti ilə tövbə et (tövbədən sonra günah təkrar olunursa, bu, səmimiyyətsizlik, ciddiyyətsizlikdir).

Qurani-Kərim buyurur ki, ölənədək günah işləyib, ölüm anında ***"tövbə etdim"*** deyənin tövbəsi qəbul olunmaz (Nisa, 4/18). Belə ki tövbə etməyin dəlili tövbədən sonrakı əməllərdir. Ölənin tövbəsini sübut edəcək dəlil (iş) ortaya qoymaq imkanı yoxdur.

Səmimi tövbənin şərti əməldir (əməllə təsdiq olunan tövbə). Məsələn, haqsız olaraq bir insanın malını yeyənin tövbəsi o malı geri qaytarmaqdır, yoxsa, sözlə, tövbə etdim deməklə canını qurtara bilməzsən. Səmimi tövbə deyir ki, sözünü (tövbəni) əməlinlə sübut et.

*Ardı var...*

Sıracəddin Hacı

# Orta təhsilli teatr drektoru "xariqələr" yaradır

## Qax Dövlət Kukla Teatrının direktorunu teatr kollektivi ittiham edir

Ölkəmizin o başından – səfalı Qaxdan gələn xəbər təəssüf ki, ürəyaçan deyil. Dövlət Kukla Teatrının kollektivi redaksiyamıza ünvanladığı şikayət məktubunda bildirir ki, teatrda aləm bir-birinə dəyib. Şikayətçilərin yazdığına görə, orta ixtisas təhsilli, 17 ildir baş rejissor, şiddətli töhmət almağına baxmayaraq hazırda direktor vəzifəsini icra edən Yusif Abdurahmanov nə dövlətin qanunlarını sayır, nə də kollektivi. Qəribədir ki, adı çəkilən şəxs haqqında zaman-zaman xoşagəlməz xəbərlər dolaşır. Nədənsə indiyədək ölçü götürülməyib. Yerində oturdulmadığını görən "qəhrəman"sa bəlli olmayan hansı xidmətinə görə aldığı Əməkdar artist fəxri adı və artıq üçüncü dəfə yiyələndiyi illik Prezident mükafatına söykənib meydan sulayır. 2021-ci ilin oktyabrından 2022-ci ilin iyun ayının sonlarınadək birinci dəfə direktoru əvəz etdikdən sonra görünür dişinə şirə dəyən Y. Abdurahmanov vəzifə hərisliyindən, tamahkarlıqdan geri dura bilməyib. Artıq beşinci aydır ikinci dəfə direktor əvəzi vəzifəsini daşıyır. Təəssüf ki, məsuliyyətin, dövlət etimadının nə olduğunu anlamayan bu şəxs teatrı dərəbəylik şəraitində idarə edir. Kollektivin səbr kasası dolan bir qism əməkdaşının bu günlərdə rayon prokurorluğuna etdiyi şikayətdə baş rejissor-direktor əvəzinin həm keçmişdə həm də son aylarda törətdiyi qanunsuz əməllər, seriştəsiz, saymazyana rəhbərliyi nəticəsində işçilər arasında ikitirəlik salması, öz tərəfdarlarına açıq-aşkar himayədarlıq, bəzilərinəsə az qala düşmən münasibəti sərgiləməsi, yaradıcılıq əhval-ruhiyyəsindən uzaq şər-böhtanlı mühit formalaşdırması, saxtakarlıqla məşğulluğu – bilet satışından əldə edilən gəlirin bank hesabına yerləşdirməməsi, saxta biletləri dövriyyəyə buraxması, eyni zamanda onları yandırması, faktiki işləməyən şəxsə əmək haqqı, qastrol tamaşaları zamanı iştirakçıların adına artıq pul hesablaması və onları mənimsəməsi, teatra məxsus xidməti maşın üçün




nəzərdə tutulan yanacaq kartıyla oğlunun şəxsi maşınına benzin doldurması, kadr üzrə bəzi əmrləri icra etməməsi, teatrın sifarişi əsasında iş görmüş təşkilatlara maliyyə ödənişlərini yerinə yetirməməsi, rüşvətlə işə adam götürməsi və sair bu qəbildəndir. Qax rayon Prokurorluğundan Mədəniyyət nazirliyinə mövcud gərginlik və bu səbəbdən teatrın – xüsusilə rəhbər şəxslərin nəzarətə götürülməsinin vacibliyilə bağlı məlumat verilməsinə baxmayaraq paytaxtdan gəlib-gedən, bu xüsusda gərək olan addım atılması barədə xəbər yoxdur. 24 il teatra rəhbərlik etmiş, ləkəli keçmişiylə tanınan, iki il əvvəl barəsində cinayət işi açılmış və təqsiri sübuta yetirilmiş, sonda vəzifəsiylə vidalaşmış Nazim Mahmudovla işbirliyində olmuş Y.Abdurahmanovun tender oyunun əsas iştirakçısı və əvvəlcə həyat yoldaşının, sonra qaynının adına bir ştat vahidi əmək haqqını uzun illər mənimsəmə faktına görə digər vəzifəli şəxs kimi söylənən cinayət işində adı keçir. Qəribədir ki, o və digər vəzifəlilər - baş mühasib Fəxrəddin Əliyev, baş rəssam Mais Abdullayev bu günədək sudan quru çıxmağı bacarıblar (?). Ötən ilin iyun-dekabr aylarında teatra rəhbərlik etmiş şəxsin isə sağlam niyyətinə, peşəkarlığına, nizam-intizamı bərqərar edərək qurub-yaratmağına dözə bilməyən Nazim Mahmudov, Yusif Abdurahmanov, Fəxrəddin Əliyev, Mais Abdullayev, teatrın bir neçə şər-xata əməkdaşı, mədəniyyət nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova, Teatr sektorunun müdiri Könül Cəfərova, baş məsləhətçi Günay Hümbətovanın himayədarlığı ilə fitnə-fəsada əl ataraq qısa vaxtda teatr üçün layiqli işlər görmüş direktoru müqavilə müddətinin bitməsi bəhanəsiylə işdən kənarlaşdıra biliblər. Bu barədə məlumatlı olan mədəniyyət naziri Fərəh Acalova və Könül Cəfərovanı artıq vəzifələrindən azad edib. Lakin hansı qüvvə isə hələ ki, baş rejissor-direktor əvəzini və digər adı bulaşanları qoruyur. Xoş sorağı gələn yeni mədəniyyət nazirinin ədalətli yanaşmasına, nalayiq hərəkətləriylə sənəti gözdən salanların cəzalarını alacaqlarına, tezliklə Qax teatrında xoş sabahların açılacağına ümid edirik.

Orta təhsilli direktor isə həmişəki kimi bütün deyilənləri təkzib edir, kollektivin iddialarının şər-böhtan olduğunu deyir. (Şəkil ötən ilin payızında çəkilib)

***Dəniz***



# Yeniliklərə vaxtında reaksiya verməyəndə

İslam ölkələrində orta əsrlərə qədər elmin səviyyəsi öz dövrünə görə yüksək idi. 16-cı əsrdə kitab çapı texnologiyası yarandı. Qurani - Kərimi yanlış anlayan Osmanlı dövründəki savadsız üləmalar, alimə yox, mürəkkəbə dəyər vermiş, karküzarlıq işlərini çap üsulu ilə yox, mürəkkəblə- əllə yazmaqla həyata keçirmək haqqında fərman imzalatmışlar. Bu fərman 18-ci əsrə qədər quvvədə qalmışdır. Nəticədə Osmanlı imperatorluğu, inkişaf etmiş Avropa qarşısında sürətlə zəifləmiş və sonda süquta uğramışdır.

İnformasiya inqilabı olan kitab çapının müsəlmanlar tərəfindən vaxtında düzgün qiymətləndirilməməsi nəticəsində islam ölkələrində elm bir neçə əsr geri düşdü (bəlkə də əbədi).

Tarixdə növbəti belə səhvi Sovet İttifaqı etdi. Kibernetika elminin yaranmasının ilk illərində bu elm SSRİ-də qadağan edildi, 10 il kibernetikanın yalançı elm adlandırılması, ölkədə yayılması və inkişafının qadağan edilməsi SSRİ-ni, sonra da RF kibernetika, informatika və İKT yüksək texnologiyalar sahəsində əbədi geriyə atdı.

Belə səhvlər bu gün də baş verir. Özü də bizim ölkəmizdə. Təhsil nazirliyinin son 25 ildə distant təhsilin potensialını vaxtında düzgün qiymətləndirə bilməməsi və onun ölkənin təhsil sistemində tətbiqinə qadağalar qoyması milli təhsilimizi onilliklərlə geri atdı, bəlkə də əbədi.

Bu gün dünyada sürətli rəqəmsallaşma prosesləri gedir. Rəqəmsal iqtisadiyyatın sürətli inkişafı təhsilin də rəqəmsallaşmasını tələb edir. Lakin təhsil sistemimiz bu sahədə lazım olan tədbirlərin çox az hissəsini, özü də keyfiyyətsiz icra edib. Bu səbəbdən hələ də əksər universitetlərimizdə uzun illər ərzində informatlaşma məsələləri, bu gün isə rəqəmsallaşma məsələləri həll edilməyib.

Dünyada təhsilin rəqəmsallaşması sahəsində hələlik 2 ssenarisi mövcuddur:

1) Ənənəvi təhsildən tamamilə imtina.

2) Təhsil prosesini rəqəmsallaşdıraraq zənginləşdirmək.

1-ci ssenari ziyanlıdır (bunun əsas tərəfdarı İlon Maskdır). 2-ci ssenari daha perspektivli və əhəmiyyətli görünür. Prosesin ümumən necə gedəcəyi zamanla bilinəcək.

Bizim təhsil sistemi isə deyəsən hələlik 1-ci istiqamətə üstünlük verir, yəni ənənəvi təhsildən və islahatlardan imtina ( artıq 25 ildir), amma başqa alternativ variantları da yoxdur. Ənənəvi təhsili dağıdıb, əvəzində yenisini yaratmamaq isə dağıdıcı innovasiyadır. Bizim menecerlər bunu yaxşı bacarırlar.



**Dos. İlham Əhmədov**

# Azərbaycanda ilk: "Kosmik fəaliyyət haqqında" qanun layihəsi nə vəd edir?

Azərbaycanda yeni - "Kosmik fəaliyyət haqqında" qanun layihəsi hazırlanıb. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilən qanun layihəsi Azərbaycanda kosmik fəaliyyətin hüquqi, iqtisadi və təşkilati əsaslarını, kosmik fəzada milli fəaliyyətin həyata keçirilməsi və kosmik sənayedə sahibkarlıq fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyir.

Qanun layihəsi haqqında danışan iqtisadçı, deputat Vüqar Bayramov vurğulayıb ki, layihə kosmik fəaliyyətin dəstəklənməsini, bu sahənin prioritetləşməsini özündə ehtiva edir: ***"Azərbaycan kosmik sənayeyə malik ölkələrdəndir və son zamanlar kosmik sahənin gəlirlərində artım var. Eyni zamanda, ölkəmiz bu sahədə aktiv siyasət həyata keçirir. Kosmik sənaye üzrə növbəti beynəlxalq illik toplantı da bu ilin oktyabr ayında Azərbaycanda keçiriləcək. Bu ondan xəbər verir ki, biz artıq bu sahədə öz mövqeyimizi möhkəmləndirmişik.***

***Kosmik fəaliyyət fərqli və yeni sahədir. Bu, Yerdə olmayan xidmətlərdən gəlirlərin əldə edilməsi və idarəedilməsini özündə ehtiva edir. Ona görə kosmik fəaliyyət sahəsində yeni layihənin qəbulu və icrası çox vacib idi. Bu kontekstdən, yeni layihə qəbul olunarsa, Azərbaycanda kosmik sənayenin dəstəklənməsinə imkan verəcək. Xüsusilə, qeyri-neft sektorunda gəlir mənbələrinin genişləndirilməsi və diversifiksiyası baxımından vacibdir. Qanun, həmçinin ona da imkan verəcək ki, kosmik fəaliyyətin qanunverici bazası formalaşdırılsın və gələcəkdə təkmilləşdirilsin".***

Qeyd edək ki, "Kosmik fəaliyyət haqqında" qanun layihəsinə əsasən, kosmik fəaliyyət aşağıdakı prinsiplər əsasında həyata keçirilir:



***- kosmik fəzadan sülh naminə istifadə edilməsi;***
***- milli maraqların qorunması;***
***- kosmik resurslardan səmərəli istifadə olunması;***
***- milli fəaliyyətə dövlət tərəfindən nəzarət edilməsi;***
***- kosmik fəaliyyətin və kosmik sənayenin təhlükəsizliyi, kosmik tullantıların ətraf mühitə təsirinin azaldılması.***

Qanun qəbul olunacağı təqdirdə ölkəmizdə kosmik fəaliyyətin hüquqi, iqtisadi və təşkilati əsaslarını, kosmik sənayedə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair ümumi tələbləri müəyyən edəcək və Yerətrafı orbitlərdə, Ay və digər səma cisimləri və onların orbitləri daxil olmaqla kosmik fəzada milli fəaliyyətə aid edilən münasibətləri tənzimləyəcək.

Qəbul ediləcəyi təqdirdə bu qanun dərc edildiyi gündən 60 gün sonra qüvvəyə minəcək.

# Sara Sarayevanın səksəkəli taleyi

1956-cı ilin fevralında keçirilmiş Sovet Kommunist Partiyasının XX qurultayı onun yeniləşməyə ümidini artırmışdı. Sara xanın XX qurultaydan az sonra, 1956-cı il mayın 17-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədrinə 18 səhifəlik məktubla müraciət etmişdi. Məktubun surətini o, Azərbaycan KP MK-ya, "Kommunist", "Bakinskiy raboçiy" qəzetlərinə, Azərbaycan Yazıçılar İttifaqına, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinə, M.F.Axundov adına Azərbaycan Rus Dili İnstitutuna və V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutuna göndərmişdi. Sara xanım məktubunu bu sözlərlə başlayırdı: ***"Mən Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin qızıyam. Mənim bütün həyatım zəhmətdə, mədəni-maarif işində keçib. Bizim əsrimizin çox adamları kimi mən də ağır və ədalətsiz şübhələri, ondan irəli gələn nəticələri yaşamışam".***

*(Əvvəli ötən sayımızda)*

Sonra o, atası ilə bağlı hökumətə və ictimaiyyətə bəyan edirdi ki, Tağıyevin obrazı mətbuatda təhrif edilir, inqilaba qədərki Azərbaycanın mədəniyyəti bəzi tarixçilər tərəfindən saxtalaşdırılır. Sara xanım nəql edirdi ki, Nərimanov başda olmaqla birinci Azərbaycan hökuməti burjuaziya içərisində Tağıyevi fərqləndirir, qiymətləndirir və ona hörmət edirdi. Sara xanım bildirirdi ki, Azərbaycanda birinci sovet hökumətinin üzvlərinin və onların həyat yoldaşlarının çoxu Tağıyevin yetişdirmələri idi. O, həmin dövrdə Tağıyevə hörmətlə yanaşmanı onların Hacını şəxsən tanıması, onun maarifpərvər fəaliyyətinə bələd olmaları ilə izah edir, indiki gənclərin və rəhbərlərin Tağıyevi yalnız mətbuatda yırtıcı kapitalistlər haqqında yazılmış böhtançı yazılardan tanıdığını vurğulayırdı.

Sara xanım inqilaba qədərki qadın təhsili haqqında Z.Axundovanın 1949-cu ildə müdafiə etdiyi dissertasiyanı nümunə kimi gətirir və orada Tağıyevin fəaliyyətinin tamamilə təhrif edildiyin bildirirdi. O, yazırdı ki, XX əsrin əvvəllərində Azərbaycanda qadın təhsili, qızlar məktəbinin açılması bilavasitə Tağıyevin adı ilə bağlı olub və "o, illərlə bu təntənəli mərasimi gözləyib. Atam deyirdi ki, ömründə bir dəfə rüşvət verib, bu da məktəbin açılması üçün olub". Sara xanım yazırdı ki, qızlar məktəbini (rus-müsəlman Aleksandriya qadın məktəbi) açmaq Tağıyevə çətinliklə nəsib olub, fanatik mollalar məscidlərdəki moizələrində deyirdilər ki, Hacı "kafir olub". Ancaq Yusif Ziya Talıbzadə, Axund Mirzə Əbuturab, Molla Ruhulla Kərim ağa kimi mütərəqqi din xadimlərini öz tərəfinə çəkməklə Tağıyev müsəlman qızları üçün məktəb açmağa nail oldu. Onun fikrincə, hələ ki, sağ olan məşhur yazıçı Abdulla Şaiq, müəllim Səməd bəy Acalov, rejissor Murad Muradov, artist Sidqi Ruhulla buna şəhadətlik edə bilərlər.

Sara Sarayevanı narazı salan Sovet İttifaqının müxtəlif yerlərində mütərəqqi burjuaziyaya fərqli münasibətin



olması idi. O, qeyd edirdi ki, "RSFSR-də cəmiyyətin inkişafında faydalı rolu olan adamlarla hesablaşır və onları təbliğ edirlər. Məsələn, knyaz Dolqoruki, yazıçı Dostoyevski, tacir Tretyakov, tacir Morozov, tacir-sənayeçi Mamontov. Onlar haqqında hətta Böyük Sovet Ensiklopediyası yazır. Həmin Ensiklopediyada Tağıyev teatrı haqqında yazırlar, lakin

onu musiqili teatr adlandırırlar. Halbuki inqilaba qədər o öz yaradıcısının adını daşıyıb, Tağıyev teatrı adlanıb". Sara Sarayeva yazırdı ki, həyatına təhlükə olmasına baxmayaraq "Tağıyev xaricə getmədi, öz kapitalını xaricə aparmadı, zavod və fabriklərinin dəzgahlarını öz gəmilərində xaricə daşımadı, Tağıyev özü də qaldı, kapitalını da sovet hakimiyyətinə saxladı, Tağıyev kadrları da sovet hakimiyyətinə saxladı".

O, məktubun sonunda xahiş edirdi ki, onu inqilabaqədər Azərbaycan mədəniyyət tarixi üzrə işə keçirsinlər; əhalinin canından qorxunu çıxarmaq üçün ona şərait yaratsınlar; ona "Azərbaycanda qadın təhsili uğrunda mübarizə" mövzusunda mövzu versinlər və bu araşdırma ilə bağlı onun əsərlərini mətbuata buraxsınlar. Bu arzuları Sara xanım atasının adı ilə əlaqələndirib yazırdı: "Qadın məktəbi mənim atamın sevimli övladı olub". Məktubun sonunda Sara xanım faciəli taleyinin yalnız bir məqamına toxunub yazırdı: "1942-ci ildə mən ərimi itirmişəm. 1947-ci ildə mən Leninqradda evsiz qaldım (onların evini bir prokurorluq işçisinə vermişdilər) və ərimin qohumları (ərinin bacısı) mənim oğlanlarımı (Lev və Oleq Sarayevlər) tərbiyə etmək üçün götürdülər. 9 il keçib. İndi o, Leninqradda 10-cu sinfi bitirir". Sara xanım şikayətlənirdi ki, hərbi çağırışın başlanmasına 2 ay qalmış hərbi komissarlıq ona ali məktəbə imtahan verməyə şərait yaratmamış və xidmət üçün Şimali Qazaxıstana göndərmişdir.

Sara Sarayeva-Tağıyevanın Azərbaycan rəhbərliyinə məktubundan sonra Moskvada nəşr olunan "Voprosı istoriya" jurnalının 1956-cı il 3-cü nömrəsində (səh.167-170) A.Fadeyevin azərbaycanlı müəlliflərin yazdığı "Azərbaycanın Rusiyiya birləşdirilməsi və onun mütərəqqi nəticələri" adlı kitaba rəyi dərc edilmişdi. Orada inqilaba qədərki Azərbaycan mədəniyyəti ilə bağlı məsələlərə də toxunulmuşdu. Fadeyev öz məqaləsində göstərirdi ki, həmin vaxt Azərbaycanda dünyəvi milli məktəb qadağan edilmişdi; mürtəce feodal-klerikal dairələr Rusiya və Azərbaycan xalqları arasında mədəni əlaqələrin genişlənməsinə kəskin müqavimət göstərirdilər. Fadeyev təklif edirdi ki, çarizmin Azərbaycanda mədəniyyət və maarif sahəsindəki siyasətini yenidən araşdırmaq lazımdır. Sara xanım respublika rəhbərliyinə göndərdiyi 17 may tarixli məktubda öz fikirlərinin doğru olduğunu əsaslandırmaq üçün Fadeyevin məqaləsi haqqında Azərbaycan KP MK və respublika Nazirlər Sovetinə may ayının 26-da əlavə məlumat göndərdi.

O, 1956-cı il iyunun 7-də Azərbaycan KP MK və respublika Nazirlər Sovetinə bir sıra yeni təkliflər göndərdi. Bu təkliflərdə Sarayeva vaxtı ilə Tağıyev haqqında yalnız mənfi fikirlər yazmış alimlərin onun reabilitasiya prosesindən uzaqlaşdırılmasını xahiş edirdi. Onun fikrincə, bu alimlər arxiv sənədlərindən yan keçərək insanların düşüncəsində Tağıyevin yırtıcı-kapitalist obrazını yaradıblar. O, yazırdı: "Dövlət heç vaxt günahsız mühakimə edilən adamın işini yenidən araşdırmaq üçün onu həbs etmiş prokurora tapşırmamalıdır, əgər tapşırarsa, həmin prokuror öz hərəkətlərinə bəraət qazandırmaq üçün dəlillər axtaracaq".

Sara xanım xahiş edirdi ki, Tağıyevə bəraət vermək üçün yaradılacaq komissiyaya yazıçı Süleyman Rəhimov, Mirzə Feyzulla Qasımzadə, Bülbül, Mansur Mansurov və doktor Ağakişibəyov daxil edilsinlər. Bu məktubunda o, Hacı Zeynalabdin Tağıyev haqqında bəzi sənədlərin əldə edilməsində ona yardım göstərmiş ADU-nun tarix fakültəsinin müəlliməsi Səidə xanım İmanzadəyə öz təşəkkürünü bildirirdi. Sonda Sarayeva Azərbaycan rəhbərliyini "şəxsiyyətə pərəstişi ifşa etmiş, cəsarətlə böhtanı qoparıb atmış Nikita Xruşşovun" səviyyəsinə yüksəlməyə, ona bərabər olmağa çağırırdı.

1956-cı ilin yazında və yayında Sara xanım atasına bəraət almaq üçün bütün qadağaları pozaraq Hacı Zeynalabdin Tağıyevi tanıyan, onun vəsaiti hesabına oxumuş, Bakı qızlar məktəbində təhsil almış, onun kontorunda işləmiş ayrı-ayrı şəxslərdən, tanınmış ziyalılardan onun haqqında xatirələr topladı. XX qurultayın nəfəsi hiss edildiyindən adamlar məmnuniyyətlə Tağıyev haqqında uzun müddət ürəklərində saxladıqları xoş təəssüratları ifadə edə bilirdilər. Abdulla Şaiq öz xatirələrində yazırdı ki, "dəqiq xatırlamıram hansı il idi. Türkan kəndində taun yayılmışdı. Həkimlər kənddə bütün ərzaq məhsullarını yandırmışdılar. Çar hökumətinin əmri ilə kazaklar kəndi əhatəyə almışdılar və kənddən çıxmaq istəyən hər kəsi öldürürdülər. Adamlar taundan çox aclıqdan ölürdülər. Hacı gəmi ilə dənizdən çörək, çay, düyü, siqaret, tənbəki göndərməyə başladı. Epidemiya ay yarım davam etdi... Hacı savadsız idi, yalnız imza atmağı bilirdi, lakin hər gün Mirzə Sadıx Abdullayev ona rus və Azərbaycan dilində çıxan qəzetləri oxuyurdu"...

***Ardı var***



**Professor Cəmil Həsənli**

# Karyerası və ömrü qatar sərgüzəşti ilə bitən Bjişkyan

**50 illik ömrünün yarısını sərxoş vəziyyətdə olan Hayk Bjişkyan sonda elə erməni konyakının güdazına gedib. İki-üç qədəhdən sonra ürəyi "açılan" erməni hərbçi qəhrəmanlığından, SSRİ-də ən savadlı hərbi nəzəriyyəçi olduğundan, özünü öyməkdən yorulmayıb. Özünü tam itirdikdən sonra isə incik düşmüş, alçaldılmış adamlar kimi rəhbərliyi təhqir etməyə, söyməyə başlayıb...**

1935-ci ildə belə bir mənzərə növbəti dəfə yaranıb. Qatarla ezamiyyətə gedən Bjişkyan səfərə tam hazırlıqlı çıxıb, yol azuqəsinə iki-üç şüşə erməni konyakı da əlavə edib. Qatar tərpəndikdən 15-20 dəqiqə sonra Bjişkyan təamları kupenin kiçik masasına düzüb və kupe yoldaşlarını masa ətrafına dəvət edib. Məclis qızışıb, başlar dumanlanıb, Bjişkyan öz adətinə uyğun olaraq sinəsinə döyə-döyə özünü tərifləməyə başlayıb. Sonda isə o, vəzifəsinə görə öz yerində olmadığını, ona qarşı haqsızlıq edildiyini dilə gətirərək hökuməti və Stalini lənətləməyə başlayıb:

"Bu hakimiyyətdə çoxları yerində deyil, başda da Stalin olmaqla. Stalini aradan götürmək lazımdır..."

Məclis vaqon bələdçisinin onlara çay gətirməsi ilə yekunlaşıb. Məclisdəki söhbətin ardı isə Moskvada, "NKVD"-də davam edib. Kupedə Bjişkyanın söhbətlərinə sakitliklə qulaq asanlardan biri səhərisi gün lazımi orqanlara hadisə haqqında ətraflı məlumat verib.

Bjişkyan qatar səfərindən 8 gün sonra həbs edilib...

Hayk Bjişkyan 1887-ci ildə Təbrizdə anadan olub. 1901-ci ildə ailə Tiflisə köçüb. Bjişkyan əvvəlcə Tiflisdə erməni ruhani seminariyasında oxuyub. Daha sonra həmin şəhərdə zabitlər və təlimatçılar məktəbini bitirərək orduda xidmətə başlayıb. O, Qafqaz cəbhəsində türklərə qarşı vuruşan 6-cı dəstənin tərkibində erməni könüllülərdən ibarət rotaya komandirlik edib.

Oktybr inqilabından conra Bjişkyan bolşeviklər partiyasına üzv



## "Hərbi strateq" iddiasının güdazına gedib

olaraq xidmətini qırmızı orduda davam etdirib, vətəndaş müharibəsinin iştirakçısı olub. Məhz həmin ərəfədə o, Kliment Voroşilovla tanış olub.

Bjişkyan 1922-ci ildə hərbi akademiyada kurs keçdikdən sonra Ermənistanın hərbi işlər üzrə komissarı təyin edilib. O, bu vəzifədə olarkən yaxın zamanlarda Moskvada itttifaq miqyaslı daha yüksək posta təyin olunacağı haqqında düşünüb. Əsasən də Kliment Voroşilov, Anastas Mikoyan və Mixail Tuxaçevski ilə yaxın tanışlıqlarına ümid edən Bjişkyan gələcək karyerasındakı uğurlarına şübhə etməyib.

Amma hər şey heç də onun düşündüyü kimi olmayıb. Ara-sıra Bjişkyanın özbaşınalığı, tabeliyində olanlarla kobud rəftarı, içki hərisliyi haqqında Moskvaya, şəxsən Stalinə məlumatlar çatıb.

Hamiləri Bjişkyana tələsməməyi məsləhət görüblər, onun akademiya təhsili almağını vacib sayıblar.

Frinze adına Hərbi Akademiyada iki il təhsil aldıqdan sonra Bjişkyanın Moskva arzusu yenə də reallaşmayıb. Bu dəfə onu Belarusiyaya korpus komandiri təyin ediblər.

Bjişkyanın Moskvada Baş Qərargahın strukturuna gətirilməsi Kremldə bir neçə dəfə müzakirə olunub və hər dəfə də Stalin bu məsələyə razılıq verməyib.

Heç olmasa Moskvaya köçmək, paytaxt qeydiyyatına düşmək üçün Bjişkyan özünə Frunze adına Hərbi Akademiyada müəllim kimi yer edib, 1933-1935-ci illərdə isə Jukovski adına Hərbi Hava Akademiyasında kafedra rəisi vəzifəsində xidmət edib. Bu vəzifə onun sonuncu vəzifəsi olub. Qatar məclisindən sonra yüksək vəzifə eşqində olan Bjişkyan həbs edilib.

Həbsindən sonra aparılan araşdırmalar zamanı Bjişkyanın orduda antisovet təbliğatı ilə bağlı çoxsaylı faktlar aşkar olunub. O, bunu qismən etiraf edib. "NKVD" rəhbəri Henrix Yaqodaya yazdığı məktubda isə bu hərəkətləri içki təsiri altında etdiyini bildirib.

Bjişkyanın həyat yoldaşı və yuxarıdakı hamiləri onun əfv edilməsi ilə bağlı bir neçə dəfə Stalinə müraciət ediblər. Stalin isə məsələni "NKVD araşdıracaq" deyə müraciətlərə müsbət reaksiya verməyib.

Daha ciddi və təkidli müdaxilələrdən sonra Bjişkyan daha az, 5 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

22 oktyabr 1935-ci ildə Bjişkyan "NKVD"-nin təcridxanasından cəza yerinə, Yaroslavl həbsxanasına aparılanda qatardan qaçmağa nail olub. Onu Yaroslavla məhbusları daşıyan qatarla yox, adi sərnişin qatarı ilə aparıblar. Bjişkyanı iki konvoy müşayiət edib. O, gecə saatlarında konvoylardan tualetə getmək üçün icazə alıb, içəridə tualetin pəncərəsini sındıraraq özünü qatardan atıb.

Bu haqda Henrix Yaqoda dərhal Stalinə məruzə edib ki, cavabında ən ağır sözləri eşidib.

Bjişkyanın tutulması üçün Yaqoda 900 nəfər "NKVD" əməkdaşını axtarışa cəlb edib. Bununla yanaşı, onun qatardan tullandığı ərazidəki kənd və qəsəbələrin sakinləri, könüllü drujinalar, komsomolçular da axtarışa cəlb olunublar.

Bjişkyan qatardan tullanarkən ayağı sındığından çox da uzağa gedə bilməyib. Gecəni meşəlikdə keçirdikdən sonra yaxınlıqdakı kəndə üz tutub, yerli kolxozçulardan biri onun hərəkətlərindən şübhələnərək milisləri çağırıb. Həmin kolxozçu Yaqoda tərəfindən pul və fəxri fərmanla mükafatlandırılıb.

Yaqoda Bjişkyanın tutulması ilə bağlı xəbəri Stalinə "sevinclə" çatdırıb. Həmin vaxt Stalin Qafqazda istirahətdə olub. Onların telefon danışığı uzun çəkib. Stalin Bjiçkyanın qaçmağının və tutulmağının ən kiçik detalları ilə matraqlanıb. Telefon danışığından sonra o, qəzəbli halda Siyasi Büronun üzvlərinə məktub göndərib:

"Hayk Bjişkyanın qaçması və tutulmasından belə görünür ki, "NKVD" rəhbərliyində bir boşluq var və proses heç də yaxşı bir şey vəd etmir. Burada anlaşılmayan bir məsələ var. Nəyə görə məhkum Bjişkyan cəza yerinə məhbus qatarında yox, sərnişin qatarında aparılıb? Bjişkyanın tutulması məsələsində isə mənzərə daha dəhşətlidir. Bir küçüyün tutulması üçün "NKVD"-nin 900 əməkdaşı axtarışa cəlb edilib. Bu artıq qeyri-peşəkarlığın ifadəsidir. Ən dəhşətlisi isə odur ki, "NKVD" bu işə kommunistləri, komsomolçuları, kolxozçuları da cəlb edib. "NKVD"-yə bu səlahiyyəti kim verib? Əgər bir cinayətkarı sıravi mülki vətəndaşlar tutacaqsa, onda "NKVD" kimə lazımdır? Bu cür hadisələr "NKVD" qurumunda bir xəstəlikdir və artıq vaxtıdır ki, biz bu xəstəliyin müalicəsi ilə məşğul olaq..."

Bjiçkyan cəzasını 1937-ci ilə qədər Yaroslavl həbsxanasında çəkib. Həmin il yeni "NKVD" rəhbəri Nikolay Yejovun təqdimatı ilə onun işinə yenidən baxılıb. Stalinlə məsləhətləşmə zamanı Bjişkyanın güllələnməsinə hökm verilib.

Qeyd edək ki, əyyaşlığı ilə daha çox tanınan, idarəetmədə elementar etika qaydalarından xəbərsiz olan Bjişkyan özünə "Haya" (ermənidir) təxəllüsünü də götürüb. Ən maraqlısı isə odur ki, erməni toplumu Bjiçkyanı dünyaya dahi hərbi nəzəriyyəçi kimi təqdim etməkdən də utanmayıblar və İrəvanda ona abidə də ucaldıblar.

# Zirzəmisinə metro xətti çəkilən "Brejnevin binası"

## Yuri Qaqarin həmin binadakı mənzildən imtina edib

Moskvanın tam mərkəzində, Kutuzov prospekti 26-da yerləşən yaşayış binasını Moskva sakinləri bu gün də "Brejnevin binası" adlandırırlar. Bir neçə korpusdan və 23 girişdən ibarət olan binanın mərtəbələri 7-12 arasında dəyişir.

Binanın inşası hələ sovet-alman müharibəsindən əvvəl planlaşdırılıb. Müharibənin başlanması ilə tikinti işləri yarımçıq qalıb, nəhayət, 1947-ci ildə tikinti işləri yekunlaşıb.

"Kutuzov 26"-nın inşasına başlananda bina partiya elitası üçün nəzərdə tutulub. Mənzillərin bölgüsü isə Mərkəzi Komitənin İşlər İdarəsi tərəfindən aparılıb. Bina "Brejenvin binası" kimi məşhurlaşsa da, "Kutuzov 26"-da daha iki baş katib, Yuri Andropov və Konstantin Çernenko da mənzil sahibi olublar. Birincilərlə yanaşı bir sıra yüksək ranqlı dövlət məmurları da məşhur binanın sakinləri olublar. SSRİ-nin mədəniyyət naziri Yekaterina Furtseva, Mərkəzi Komitənin katibi Mixail Suslov, SSRİ daxili işlər naziri Nikolay Şelokov, Siyasi Büronun ona yaxın üzvləri uzun illər bu binada yaşayıblar. Bəzən "Kutuzov 26"-nı zaraftayana Siyasi Büronun filialı da adlandırıblar.

Mövcud dövr üçün bina təhlükəsizlik baxımından ən yüksək standartlara cavab verib. Həmçinin xüsusi mühafizə dəstəsi tərəfindən mühafizə olunub.

Binanın həyətində göz oxşayan yaşıllıq salınıb, istirahət məkanı yaradılıb. O cümlədən həyətdə uşaq bağçası da fəaliyyət göstərib ki, həmin bağçaya yalnız "Kutuzov 26"-da qeydiyyatda olan birincilərin uşaqları və nəvələri qəbul edilib.

Binanın təxminən iki-üç mərtəbə dərinliyində olan zirzəmisinə "Metro 2" adı ilə metro xətti çəkilib. Fövqəladə vəziyyətlərdə binadan çıxmamaqla sakinlərin təxliyəsi mümkün olub. 1980-ci illərin sonlarında bu xətlər ləğv edilib.

Leonid Brejnevə "Kutuzov 26"-da Mərkəzi Komitənin katibi seçiləndə mənzil verilib. 1964-cü ildə Brejnev baş katib seçiləndə qonşu mənzil də onun evinə qatılıb. 1977-ci ildə isə Brejnev baş katibliyi ilə yanaşı SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsinə sahib olanda isə daha bir mənzilin də divarları götürülərək onun mənzili genişləndirilib. Baş katibin 4-cü mərtəbədəki mənzilinin ümumi sahəsi 300 kvadratmetr olub. Binadan əlavə qonşuluqdakı ikiotaqlı, 60 kvadratmetrlik mənzil Brejnevin tibbi personalı üçün ayrılıb ki, həkimlər gecə-gündüz bu mənzildə növbə çəkiblər.

Mixail Suslov Brejnevdən bir mərtəbə yuxarıda, 5-ci mərtəbədə yaşayıb. Həmkarlarından fərqli olaraq onun mənzili nisbətən kiçik, 90 kvadraemetr olub.

Yuri Andropov isə "Kutuzov 26"-da altıncı mərtəbədə məskunlaşıb. Onun 155 kvadratmetrlik mənzili 4 otaqdan, iki yataq otağından, bir iş kabinetindən və geniş qonaq otağından ibarət olub.

SSRİ daxili işlər naziri, Yuri Andropovla düşmənçilik mövqeyində olan Nikolay Şelokov altıncı mərtəbədə Andropovla divar qonşusu olub.

Brejnevdən başqa digər yüksəkçinlilər evdən işə, işdən evə qayıdanda Kutuzov prospektində avtomobillərin hərəkəti məhdudlaşdırılmayıb. Yalnız Brejnev gedib gələrkən prospektə hərəkət dövlət yol müfəttişləri tərəfindən dayandırılıb.

Yuri Qaqarin kosmosu fəth etdikdən sonra Nikita Xruşov kosmonavta "Kutuzov 26"-da mənzil ayrılması ilə bağlı göstəriş verib. Qaqarin bu təklifdən imtina edərək özünə məşhur "Sahildəki ev"dən mənzil istəyib. Yəqin ki, kosmonavt siyasi elitanın arasında daima nəzarətdə olacağından çəkinərək birincilərlə qonşu olmaq istəməyib.



Brejnevin hakimiyyəti illərində "Kutuzov 26"-da mənzil verilən şıxslər əvvəlcədən onunla razılaşdırılıb. Baş katibin razılığı olmadan onun qonşuluğuna köçmək mümkün olmayıb.

Brejnev 1964-cü ildə baş katib seçildikdən sonra şəhər mənzilində az yaşayıb. O, Moskva ətrafında "Zareçye 6"-dakı bağ evində yaşamağa daha çox üstünlük verib. Ora köçməzdən əvvəl iqamətgahda əsaslı təmir və yenidənqurma işləri aparılıb. Bağ evi geniş qonaq otağından, iş kabinetindən, kitabxanadan və əlavə altı otaqdan ibarət olub. Bağ evində daimi olaraq baş katibə iyirmidən artıq xidməti personal qulluq edib.

1978-ci ildə Şusev küçəsində partiya elitası üçün yeni, daha müasir yaşayış binası tikiləndə Brejnev üçün ayrıca bir mərtəbə nəzərdə tutulub. "Gözütox" baş katib həmin mənzildən imtina edib, "Kutuzov 26"-nı daha üstün sayıb.

"Brejnevin binası" təkcə elit sakinləri ilə deyil, həm də faciəli hadisələrlə yadda qalıb. SSRİ-nin iki daxili işlər naziri, Nikolay Şelokov və Boris Puqo məhz bu binadakı mənzillərində intihar ediblər.

1990-cı illərdən sonra "Kutuzov 26"-nın sakinləri tam yenilənib. Brejnevin birləşdirilmiş mənzilləri yenidən ayrılaraq ayrı-ayrı şəxslərə satılıb. Andropovun, Çernenkonun, Suslovun, Siyasi Büronun digər üzvlərinin həyat yoldaşları və övladları mənzillər özəlləşdirildikdn sonra satıb köçüblər.

"Kutuzov 26" şəhərin mərkəzində yerləşsə də yaşayış binası kimi əvvəlki prestijini saxlaya bilməyib. Müasir tikililərdəki komfort "Brejnevin binası"nı qat-qat üstələdiyindən indi "Kutuzov 26"-dan daha çox ofislər kimi istifadə olunur.

Təqdim edən: İlham Cəmiloğlu

# Paralel

**Son səhifə**

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 059 (3627) 18 may 2023-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik




## Xolesterinin səviyyəsini azaldan qida məhsulları

Bəzi qida məhsulları xolesterinin səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına səbəb ola bilər.

*“Yüksək səviyyədə xolesterinin ürək xəstəlikləri və insult kimi sağlamlıqla bağlı ciddi problemlərə çevrilməsindən öncə onun qarşısını almaq lazımdır”.* Bu fikirləri həkim Tatyana Zaxarova söyləyib.

Həkim xolesterin səviyyəsini nəzarətdə saxlamaq üçün aşağıdakı qida məhsullarını tövsiyə edib: skumbriya və qızılbalıq kimi yağlı balıq, yulaf, lobya, qoz-fındıq, alma, üzüm, çiyələk, portağal və limon, avokado, tərəvəzlər və tünd yarpaqlı göyərti. O əlavə edib: *“Bütün bu qida məhsulları bədəndə artıq xolesterini yağları enerjiyə çevirməyə kömək edən öd turşuları duzlarına çevirməyə imkan verən fermenti aktivləşdirə bilər. Bu proses orqanizmdə xolesterin səviyyəsini azaltmağa kömək edir və siz özünüzü daha enerjili hiss edirsiniz. Bu, həm də bizə daha çox hərəkət etməyə və qidalanma nöqteyi-nəzərindən daha effektiv qərarlar qəbul etməyə imkan verir”.*

Bu qidaların bir çoxunun mum maddəsinin qarşısını ala bilməsinin daha bir səbəbi onların tərkibində həll olunan lifin olmasıdır. Həll olunan lif bağırsaqda xolesterinlə zəngin öd turşularına bağlanan gel əmələ gətirə bilər. Bu, bağırsaqlardan qana udulan xolesterinin miqdarını məhdudlaşdırmağa kömək edir. *"Bu zaman qaraciyəriniz daha çox öd istehsal etmək üçün qandan daha çox xolesterin xaric etməlidir, bu da qanda xolesterinin səviyyəsini aşağı salır"*, - deyə həkim bildirib.

## Hər kiloqram bədən çəkisinə görə 1-1,5 qram zülal qəbul edilə bilər

Protein əzələ kütləsinin inkişafı və böyüməsi üçün vacib qida əlavəsidir. Onun tərkibində karbon, hidrogen, oksigen və kükürd kimi təbii birləşmələr var. Həmin qida vasitəsi orqanizmdəki enerjini təmin edir, hüceyrələrə və bədəndəki əzələlərə təsir göstərir.

Qida mütəxəssisi Məhsəti Hüseynovanın dediyinə görə, proteinin miqdarı hər orqanizmə görə fərlidir: *“Onu elə normada qəbul etmək lazımdır ki, əks təsirlərlə üzləşməyəsən. Ümumi standartlara uyğun götürsək, hər kiloqram bədən çəkisinə görə 1-1,5 qram zülal qəbul edə bilərlər. Ancaq bəzən idmançılar, fiziki işlə məşğul olanlar, ağır işdə çalışanlar hər kiloqram bədən çəkisinə görə 2 qram zülal qəbul edirlər. Həmin normaya əməl etməklə orqanizmə lazım olan faydalı zülal miqdarını təmin etmək olar”.*

Bəzi idmançılar təbii deyil, süni, yəni toz halında olan proteinlərdən istifadə edirlər. Mütəxəssislər həmin qidaların mənfi təsiri olmadığını deyirlər. Hətta mədə əməliyyatı olanlara və yaxşı qidalanmayanlara protein tozu məsləhət görülür. Ancaq söhbət tam keyfiyyətli və sertifikatlı qida əlavələrindən gedir. *“Bu zaman çox diqqətli olmaq lazımdır, çünki onların əksər hissəsinin tərkibində soya tərkibli geni dəyişdirilmiş zülallardan istifadə olunur və onlar orqanizmdə demək olar ki, mənimsənilmir. Müəyyən olunmuş miqdarı aşanda qida zəhərlənmələri kimi təhlükələrə səbəb ola bilər. Eyni zamanda qidalarla zülal miqdarının çox qəbul olunması sağlamlıq üçün zərərli ola bilər”,* - deyə qida mütəxəssisi əlavə edib.




Doğrudur, qəbul edilən proteinlə lazımi maddələri əldə etmək mümkündür, lakin unutmaq olmaz ki, arzu edilən bədən quruluşuna sahib olmaq düzgün qidalanmadan və məşqin keyfiyyətindən də asılıdır.



## Xiyar yaşlı insanlarda bağırsağın fəaliyyətini yaxşılaşdırır

Yaşlı insanlarda çox vaxt bağırsaq atoniyası və ya qidalanma, oturaq həyat tərzi ilə əlaqədar qəbizlik olur. Lifin qəbulu bu problemlərin profilaktikasında köməklik edir. Xiyar (qabıqla yeyildikdə) həzm proseslərini və peristaltikanı stimullaşdıran əla lif mənbəyidir.

Bu barədə həkim-diyetoloq Yevgeni Arzamastsev bildirib.

Xiyarla birlikdə orqanizm yaşlı insanların kifayət qədər miqdarda qəbul etməsi vacib olan mayeni alır. Suyun adekvat qəbulu təhlükəli qan laxtalanmasının qarşısını alır. *“Heç də hər yaşlı insan kifayət qədər maye qəbul etmir. Xiyar bu problemlə mübarizədə kömək edir”*, - deyə o bildirib.

## Yazın ilk meyvəsi və onun yuyulma qaydası



Çiyələk yazda süfrələrə çıxan ilk və vitaminlərlə zəngin meyvələrdən biridir. Onun tərkibi sadə şəkərlər, salisil turşusu və vitaminlərlə zəngindir, bağırsaqlarda olan toksinləri, ağır metallar və digər zəhərli maddələri özünə birləşdirərək orqanizmdən xaric edir. Çiyələk ildə iki dəfə - yazda və payızda məhsul verir və onu hər vaxt yemək həm uşaqlar, həm də böyüklər üçün xeyirlidir.

Lakin çiyələkdən istifadə zamanı bəzi qaydaları gözləmək lazımdır. Yaz vaxtı müxtəlif çiçək tozcuqları onun üzərinə yığılması allergik reaksiyalara səbəb olur. Qida mütəxəssisi Aytac Zülfüqarlı: *“Çiyələyi yuyub təmizləyərkən müəyyən qaydalara əməl etmək lazımdır. Məsələn, bir ovuc çiyələk yeyiləcəksə, qabda olan çiyələyin hamısını yumaq düzgün deyil. Çiyələyin tərkibində çoxlu su var. Onları quru saxlamaqla, meyvə daha uzun müddət təzə qala bilər, çünki nəmlik kifin yaranmasını və məhsulun xarab olmasını sürətləndirir. Meyvədə xarabolma əlamətlərinin yayılmasının qarşısını almaq üçün kiflənmiş və ya ağarmış çiyələklər aşkarlananda onları atmaq lazımdır. Çiyələk yaxşı saxlanarsa, 5-7 gün keyfiyyətli qala bilər, lakin həddindən artıq nəmlik və kif kimi bir neçə amil bu müddəti qısalda bilər”.*

Mütəxəssislər bildirilər ki, çiyələk torpaqla çox bağlı olduğuna görə onun səthində mikroorqanizmlər və qurd yumurtaları toplanır. Çiyələyin allergik təsirini azaltmaq və üzərindəki patogen mikroorqanizmləri və qurd yumurtalarını məhv etmək üçün onu təmiz yumaq, meyvələri sodalı su ilə təmizləmək lazımdır.

*“Bir qaba üç stəkan soyuq su və bir stəkan alma sirkəsi və ya ağ sirkə tökülür, çiyələk 5-20 dəqiqə həmin suda saxlanılır. Sonra soyuq su ilə təmiz yuyulur və turş dad verməmək üçün durulanır. Soyuq su məhsuldan pestisid qalıqlarının 75-80 faizini təmizləyir. Həmçinin soda məhsulu da təzə meyvə və tərəvəzlərdən çirk və pestisid qalıqlarının izlərini aparmağa kömək edir. Bundan başqa soyuducuda açıq bir qutu soda saxlamaq çiyələyin dadını və qoxusunu qoruyub saxlamağa kömək edir”*,- deyə qida mütəxəssisi əlavə edib.

Çiyələk digər meyvələrlə müqayisədə ən çox qida maddələri ilə zəngindir, onu əbəs yerə “meyvələrin kraliçası” adlandırmırlar. Gün ərzində 8 çiyələk yeyilməsi orqanizmi C vitamini ilə təmin etmək üçün kifayət edir.


Təsisçi:
Tapdıq Abbas

Baş redaktor:
Akif Nəsirli

Birinci müavin:
Şahnaz Salehqızı

İnformasiya şöbəsinin müdiri:
Röyal Əsədli

Bölgə müxbirləri:
Vaqif Cəmiloğlu
Sadıq Sadıqlı
İqbal Məmmədov
Əlizadə Nəhmədağaoğlu
İlkin Əsədzadə

Qəzet 16 fevral 2003-cü ildən çıxır.

Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə “Azərbaycan” nəşriyyatı
Tel: 510 15 07, Fax: 510 15 06
E_mail: paralel_qazeta@mail.ru

Qəzet “Son Dakika” MMC-nin mətbəəsində çap olunub.

Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: 2185 Tiraj: 1550